

**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**

## "Heydər Əliyev və Yeni Azərbaycan"




8

SƏS

№ 227 (6910)

12 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik

## "Biz beynəlxalq arenada müstəqil siyasət yürütməyə davam edəcəyik"



5

*Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib*

# ƏBƏDİYAŞAR LİDER

*12 dekabr-ümummilli lider Heydər Əliyevin anım günüdür*



## Qələbə triumfunun son akkordu - seçkilər



12

## Sosial siyasət: ümumi rifah naminə




15

## Ermənistan üçün "Ayakve" adlı QORXULU NAĞILLAR



13

## Qəzetlər nəyə lazımdır?



14

# Azərbaycandan Avropanın enerji təhlükəsizliyinə önəmli töhfə






*“Serbiya-Azərbaycan əlaqələri sürətlə və dinamik şəkildə inkişaf edir. Biz strateji tərəfdaşıq, çünki strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdır və sözdə, sənəddə və əməldə bu yüksək statusa sadiqliyimizi göstəririk”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində çıxışı zamanı bildirib.*

## Prezident İlham Əliyev: "Azərbaycanın qaz ixracı coğrafiyası daha da genişlənir"




Qeyd edək ki, müasir dünyamızda dövlətlər arasında münasibətlərin yaranması, əməkdaşlığın möhkəmlənməsi, dünya birliyinin inkişafı sahəsində məqsədlərə birgə nail olması əsas məsələlərdən biri olaraq diqqətdədir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizlə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla Serbiya arasında əlaqələr də yüksələn bir xətlə inkişafdadır. İki ölkə arasında münasibətlərin inkişafına dövlət başçılarının görüşləri təkan verib. Azərbaycan-Serbiya əlaqələri müasir dövrümüzdə uğurla inkişaf edir və bu əlaqələr bütün sahələri əhatə edir. Strateji tərəfdaşlıq zəminində qurulmuş münasibətlər müttəfiqlik səviyyəsinə yüksəlib.

### “GƏLƏCƏK PLANLARIN HƏYATA KEÇİRİLMƏSİ ÜÇÜN ƏLBƏTTƏ, ENERJİ RESURSLARI LAZIMDIR”

Xatırladaq ki, Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılışı uzun illər bundan əvvəl planlaşdırılırdı. Nəhayət, buna nail olundu. "Açılışdan sonra interkonnektorun fəaliyyəti Serbiyanın sənaye inkişafına böyük töhfə verəcəkdir. Mən bilirəm ki, Prezident Vuçiçin ölkəsinin sənaye potensialının inkişafı ilə bağlı çox genişmiqyaslı planları var. O planların böyük hissəsi həyata keçirilib. Gələcək planların həyata keçirilməsi üçün əlbəttə, enerji resursları lazımdır və şaxələndirilmiş təchizat şəbəkəsi də təbii ki, qurulmalıdır” – deyə Azərbaycan Prezidenti çıxışında bildirib.

Xatıradaq ki, Serbiya və Monteneqro İttifaqı ilə Azərbaycan Respublikası arasında ikitərəfli diplomatik münasibətlər 21 avqust 1997-ci ildə qurulub. 2011-ci il tarixində Azərbaycanın Prezidenti İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri olub. Səfər çərçivəsində Serbiyada Azərbaycan səfirliyi açılıb. Azərbaycan hər zaman beynəlxalq təşkilatlarda Serbiyanı dəstəkləyib və ölkələrimizdə səfirliklərin açılması da ikitərəfli əməkdaşlığa öz mühüm töhfələrini verir. 21-22 may 2018-ci il tarixlərində Serbiya Prezidenti Aleksadar Vuçiçinin Azərbaycana rəsmi səfəri məücud əlaqələrin davamı kimi dəyərləndirilir. 3-6 aprel 2018-ci il tarixlərində isə Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiç Azərbaycana işgüzar səfər etmişdir. Daha sonra 21-26 oktyabr 2019-cu il tarixlərində Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiç Azərbaycana işgüzar səfər etmişdir. Dövlətlərarası münasibətlər iqtisadiyyat, enerji sahələrində yeni prespektivlərə yol açmışdır. 2013-cü ildə Azərbaycan və Serbiya arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə, 2018-ci ildə imzalanmış strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı əhəmiyyət kəsb edir.

Ardı Səh. 3






# Azərbaycandan Avropanın enerji təhlükəsizliyinə önəmli töhfə








Əvvəli-Səh-2

Azərbaycan və Serbiya arasında strateji tərəfdaşlıq səviyyəsində olan əlaqələr ildən-ilə genişlənir. Azərbaycan ilə Serbiya arasında bütün sahələri əhatə edən strateji tərəfdaşlığın növbəti müsbət nəticəsi kimi, bu il iki ölkənin ticarət dövriyyəsində 3 dəfəyə yaxın artımın qeydə alınması diqqəti çəkən məqamdır. İkitərəfli əlaqələrin daha da geniş miqyas alması üçün potensial böyükdür. Azərbaycan və Serbiyanın işgüzar dairələri arasında əlaqələrin, biznes sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinin də xüsusi önəm kəsb edir.

### "İNTERKONNEKTORUN FƏALİYYƏTƏ BAŞLAMASI AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ DƏ ÖNƏMLİ TÖHFƏ VERƏCƏKDİR"

"Bugünkü mərasim dostluq mərasimidir, strateji tərəfdaşlıq mərasimidir" – deyən Prezident bunun Serbiya və Bolqarıstanın enerji təhlükəsizliyinə böyük töhfə verəcək layihə olduğunu diqqətə çatdırıb: "Eyni zamanda, Azərbaycan xalqını təbrik etmək istəyirəm. Çünki Azərbaycanın qaz ixracı coğrafiyası daha da genişlənir. Hazırda biz təbii qazımızı səkkiz ölkəyə ixrac edirik, Serbiya doqquzuncu ölkədir. Bu doqquz ölkənin yeddisi Avropa ölkəsidir və təbii ki, bugünkü mərasim - interkonnektorun fəaliyyətə başlaması Avropanın enerji təhlükəsizliyinə də önəmli töhfə verəcəkdir".

Məlumdur ki, keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır. Bu gün Azərbaycan Avropa İttifaqının bir çox sahələrdə uğurlu əməkdaşlığı var. Azərbaycan Aİ-nin enerji sahəsində strateji tərəfdaşıdır. Azərbaycan həmçinin Xəzər dənizinin qaz resurslarının Cənub Qaz Dəhlizi vasitəsilə Aİ bazarına çatdırılmasında həlledici rol oynayır. Enerji sahəsində fəal əməkdaşlığın on beş ildən artıq tarixi var. 2018-ci il iyulun 11-də Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" adlı mühüm sənəd ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsində əhəmiyyətli rol oynadı. Bu sənədin imzalanması bir daha göstərdi ki, Azərbaycan Avropa İttifaqı ilə bərabərhüquqlu və qarşılıqlı faydalı tərəfdaşlıq münasibətlərini daha da inkişaf etdirmək istəyir.

Müasir dünyamızda enerji təhlükəsizliyi vacib məsələlərdəndir. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq öz nəticələrini verir. Anlaşma Memorandumu əsasında Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmi ikiqat artacaqdır. Avropa İttifaqı ilə münasibətlərin sağlam təməl əsasında qurulmasının nəticəsidir ki, Azərbaycan Avropa İttifaqının mühüm tərəfdaşı kimi qəbul olunur. Xüsusi olaraq qeyd edək ki, ölkəmizin enerji siyasəti bölgədə regional əməkdaşlığın genişlənməsi üçün etibarlı təminatçıdır. "Bu memoranduma görə, Azərbaycan 2027-ci ilə qədər Avropaya göndərilən qazın həcmini iki dəfə artırmalıdır. Artıq rəqəmlər onu göstərir ki, biz inamla bu hədəfə doğru gedirik. 2021-ci ildə bizim Avropa məkanına qaz ixracımız 8 milyard kubmetrdən bir qədər çox olmuşdursa, bu il bu, təxminən 12 milyard kubmetrə çatacaq. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir" – deyə Prezident bildirib. Dövlət başçımız onu da bildirib ki, Azərbaycanın bütövlükdə enerji strategiyası uğurla icra edilir: "Bizim tərəfimizdən irəli sürülmüş və icra edilmiş layihələr Avropanın və Asiyanın - Avrasiyanın enerji xəritəsini böyük dərəcədə yenidən tərtib etmişdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft kəmərləri bu gün Azərbaycan neftini Aralıq dənizinin və Qara dənizin bazarlarına çatdırır. Cənub Qaz Dəhlizi - uzunluğu 3500 kilometr olan nəhəng infrastruktur layihəsi Avropanın enerji təhlükəsizliyinə çox böyük töhfə verir. Təsadüfi deyil ki, Avropa Komissiyası, onun yüksəkvəzifəli şəxsləri Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı kimi dəyərləndirirlər".

Bütün bunlar Azərbaycanın dünya ölkələri ilə münasibətlərinin inkişaf etdirilməsinin təkcə iqtisadi yox, həm də mühüm siyasi əhəmiyyətə malik olduğunu göstərir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir

*Prezident İlham Əliyev Gürcüstan parlamenti sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Prezident İlham Əliyev dekabrın 11-də Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Prezident İlham Əliyev Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı.***

Dövlətimizin başçısı Gürcüstanın Baş naziri ilə mütəmadi görüşlərinin, o cümlədən Azərbaycan Prezidentinin dəvəti ilə İrakli Qaribaşvilinin fəxri qonaq qismində SPECA-nın Bakıda keçirilmiş Zirvə görüşündə iştirakı zamanı onunla görüşünün əlaqələrimizin möhkəmlənməsi işində rolunu qeyd etdi.

Prezident İlham Əliyev ölkələrimizin həyata keçirdiyi birgə layihələrin önəminə toxunaraq, bunu geniş regionda - Avrasiya məkanında önəmli amil kimi dəyərləndirdi və birgə təşəbbüslərimizin bundan sonra da uğurla həyata keçiriləcəyinə əminliyini bildirdi. Dövlətimizin başçısı parlamentlərarası əməkdaşlığın da münasibətlərimizin inkişafına mühüm töhfə verdiyini vurğuladı, bunun əməkdaşlığımızın daha da möhkəmlənməsi üçün zəruri hüquqi baza yaratdığını dedi. Prezident İlham Əliyev Şalva Papuaşvilinin Azərbaycana səfərinin əlaqələrimizin uğurlu inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Gürcüstan parlamentinin sədri bu ilin mayında Azərbaycan Respublikası Milli Məclisinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xüsusi iclasında iştirakı ilə bağlı ölkəmizə səfərini məmnunluqla xatırladı. Şalva Papuaşvili Ulu Öndərin çox çətin bir dövrdə Azərbaycana müdrik rəhbərliyini qeyd edərək, Ümummilli Lider Heydər Əliyevin və Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadzenin münasibətlərimizin əsasının qoyulmasında müstəsna rol oynadıqlarını dedi.

Qonaq ölkələrimizin həyata keçirdiyi layihələrin önəmini qeyd etdi, bu layihələrin xalqlarımızın rifahına və bölgədə sülhə xidmət etdiyini vurğuladı. O, ikitərəfli dostluq münasibətlərimizin uğurla inkişaf etdiyini deyərək, bu işdə müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin roluna toxundu. Görüşdə energetika, nəqliyyat, mədəniyyət sahələrində əməkdaşlığa dair perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Heydər Əliyev işığının nurlandırdığı yol

***Dekabrın 12-si xalqımızın ümummilli lideri, çoxəsrlik Azərbaycan tarixində misilsiz xidmətləri ilə əbədiyaşar mövqe qazanmış ulu öndər Heydər Əliyevin anım günüdür. Dünya tarixi sübut etmişdir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir.***



Ulu Öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasından 20 il ötsə də, O, bu gün də, gələcəkdə də Azərbaycan xalqının qəlbində yaşayacaq, yaşadılacaq. Çünki öz müqəddəs əməli sayəsində Vətəni, xalqı uğrunda yorulmadan çalışmış Dahi Şəxsiyyət, Fenomen Heydər Əliyev ömrünü dövlətçiliyin inkişafı, Azərbaycanın tərəqqisi üçün şam kimi əritdi. Onun bir amalı var idi - qurduğu mütərəqqi dövləti beynəlxalq aləmdə tanıtmaq, lider ölkələrdən birinə çevirmək. Və bu amal gerçəkliyə çevrilib. Çünki Ümummilli Lider Heydər Əliyev yolu bu gün Onun ən layiqli davamçısı, Prezident İlham Əliyev Cənabları tərəfindən uğurla davam etdirilir, yaşadılır. Çünki Heydər Əliyev ideyası əbədi və dönməzdir.

### MÜDRİKLİYİN DÜHASI

"Heç bir millət şəxsiyyətsiz yaşaya bilməz". Bu fikir Azərbaycan adını öndə gedən dünya ölkələri sırasına yazan, öz uzaqgörənliyi ilə dünya siyasətçilərini daim heyrətə gətirməyi bacaran, millətin hər bir nümayəndəsini ürəkdən sevən dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevə məxsusdur! Əslində doğru deyiblər ki, zaman hər şeyi yerbəyer edir, hər şeyin, hər kəsin doğru qiymətini verir. İllər keçdikcə, Ümummilli Liderimiz Heydər Əliyevin böyüklüyünü, müdrikliyini, xalqını, vətənini necə bir məhəbbətlə sevdiyini daha çox anlayırıq. Bu siyasət nəhənginin fəaliyyəti bütün bəşəriyyətin xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr olunmuşdur. Belə ki, tarixin xalqımıza bəxş etdiyi dahi şəxsiyyətin, müasir Azərbaycanın xilaskarı və memarı, Ulu Öndəri Heydər Əliyevin bütün fəaliyyətinin məqsədi Azərbaycanı güclü, demokratik dövlətə çevirmək və xalqına firavan həyat bəxş etmək idi. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü onun şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun Azərbaycana otuz ildən çox rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr etmişdir.

Artıq kimsəyə sirr deyil Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yürütdüyü imperializm siyasi xəttinə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir. Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

### ULU ÖNDƏRİN SƏSİ KREMLİN ÖLKƏMİZİN ƏTRAFINDA YARATDIĞI İNFORMASİYA BLOKADASINI YARDI

Bəli, 1990-cı ilin 20 yanvarında isə xalqımıza qarşı əsrin ən böyük cinayətlərindən biri törədildi. Dağlıq Qarabağa qarşı təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal edildi, 20 mindən çox insan şəhid, 30 mindən artıq adam isə əlil, şikəst oldu. Belə ağır bir zamanda Heydər Əliyev öz həyatını təhlükə altına alaraq xalqı ilə birgə olduğunu bəyan etdi. Məhz Ulu Öndərin səsi Kremlin ölkəmizin ətrafında yaratdığı informasiya blokadasını yardı. Öncə Naxçıvanı çətin durumdan xilas edən Ulu Öndər, 1993-cü ildə xalqın təkidi və tələbi ilə Bakıya qayıtdı. Beləliklə, Azərbaycanın dövlətçiliyi, millətimiz və vətənimiz xilas oldu. Azərbaycan yenidən dinamik inkişaf tempi əldə etdi. Ən əsası isə SSRİ dövründə başlanan və məhz müstəqilliyimizə hesablanmış layihələr davam etdirildi, müstəqil dövlətimiz yaşadı. Artıq qarşıdakı məqsəd dövlətin qurulması, dövlətçilik ənənəsinin yaradılması, dövlət idarəçiliyi institutlarının formalaşdırılması və müstəqil ölkəmizin qanunvericilik bazasının təşkili idi. Bütün bunlarla yanaşı, müstəqil Azərbaycan dövlətinin xarici siyasət kursu formalaşdırıldı. Ulu Öndər bu vəzifələrin öhdəsindən ləyaqətlə gəldi. Azərbaycanda müstəqilliyin əbədiliyini, dönməzliyini təmin edən dövlət quruluşu yaratdı. Və həmin dövrlərdə ölkədə böyük bir qarşıdurma yaranmışdı. Heydər Əliyev zəkası ölkəmizi bu problemdən də xilas etdi. Məhz Ulu Öndərin səyi nəticəsində Azərbaycanda hüquqi dövlət quruldu. Bu günkü demokratik prinsiplərə sadiq, vətəndaş cəmiyyəti, inkişaf etmiş və sabit Azərbaycanın təməli məhz 1993-cü ilin yayında atıldı. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

## BU YOL - Prezident, Ali Baş Komandanımız Qalib Lider İlham Əliyev yolunun dönməz və sarsılmaz yoludur

### DAHİ LİDER HEYDƏR ƏLİYEV MÜSTƏQİL DÖVLƏTİMİZİN İLK KONSTİTUSİYASININ YARADICISI

Ulu Öndər Heydər Əliyev ictimai-siyasi sabitliyi qorumaq üçün qanunçuluğun yüksək səviyyədə təsbit olunması istiqamətində mühüm addımlar atdı. Ölkədə xaos və özbaşınalığın qarşısı alındı. Xalqın Heydər Əliyevə inamı, etimadı o dərəcədə yüksək idi ki, onun hər bir çağırışı Azərbaycan xalqının bütün təbəqələrində böyük əks-səda doğururdu. 1994-95-ci illərdə xarici qüvvələrin köməyi ilə bəzi dairələr Azərbaycanda dövlət çevrilişinə cəhd göstərdilər. Məqsəd ölkəmizin həyata keçirdiyi müstəqil siyasəti əngəlləmək, Azərbaycanı yenidən xarici qüvvələrin, imperiya dairələrinin təsiri altına keçirmək idi. Azərbaycan xalqının Heydər Əliyevə olan inamı hesabına dövlət çevrilişinə cəhdin qarşısı qətiyyətlə alındı. İctimai-siyasi sabitliyin təmin edilməsi iqtisadi islahatların həyata keçirilməsinə yol açdı. Dövlət idarəçiliyi ilə bağlı qanunlar hazırlanaraq təsdiq olundu. Ən başlıcası isə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edildi. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edildi. Bu Konstitusiyanın müəllifi Ulu Öndər Heydər Əliyevdir. Azərbaycan xalqının siyasi taleyini, siyasi fəaliyyətini, məqsəd və məramını, iqtisadi və dövlət idarə üsulunu müəyyən edən Konstitusiyanın qəbul edilməsi olduqca əhəmiyyətli hadisədir. Bu Konstitusiya ilə Azərbaycanda hakimiyyət bölgüsü - qanunverici, icra və məhkəmə hakimiyyəti arasında bölgü müəyyənləşdirildi. Konstitusiya ilə təsbit edildi ki, Azərbaycan demokratik, hüquqi və unitar dövlətdir. Konstitusiyada insan hüquq və azadlıqlarına geniş yer verilməsi göstərdi ki, Azərbaycanın yolu demokratiyadır. Bütün bunlar Ulu Öndərin dövlət quruculuğu sahəsində gördüyü böyük işlərin əsas istiqamətlərindən biridir.

### BU, BİRLİK YUMRUĞUDUR, BU, GÜC YUMRUĞUDUR. BUNDAN SONRA AZƏRBAYCAN YALNIZ İNKİŞAF, TƏRƏQQİ YOLU İLƏ GEDƏCƏK

Bəli, bu gün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyünün bərpasına nail oldu. Böyük Öndər Heydər Əliyev demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm".

Ümummilli lider Heydər Əliyevin müdrik, uzaqgörən və çevik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş, Heydər Əliyev idarəçilik məktəbinin layiqli davamçısı hesab edilən İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!".

Bəli, Ruhun şad olsun, Ulu Öndər, Qarabağ Azərbaycandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəsində "Dağlıq Qarabağ" problemi yoxdur: «Bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!».

Ona görə də Ulu Öndərin fiziki yoxluğu dövründə ölkəsini, millətini düşünüb, müstəqilliyimizin əbədi olması uğrunda qətiyyətlə mübarizə apara biləcək yegane Lider Prezident İlham Əliyev cənablarıdır. Bütün bunlar isə Heydər Əliyev uzaqgörənliyinin, Heydər Əliyev zəkasının və Heydər Əliyev nurunun bizə tərəf saçılan əbədi şölələridir!

**RƏFİQƏ KAMALQIZI**

# “Biz beynəlxalq arenada müstəqil siyasət yürütməyə davam edəcəyik”



## *Azərbaycan Prezidenti İlham Əliyev “Euronews” televiziyasına müsahibə verib*

***Prezident İlham Əliyev noyabrın 23-də “Euronews” televiziyasına müsahibə verib. Müsahibə dekabrın 9-da “Euronews”da yayımlanıb. AZƏRTAC həmin müsahibənin tam variantını təqdim edir.***

**Müxbir:** Salam cənab Prezident.

**Prezident İlham Əliyev:** Salam.

Müxbir: Avropa Yenidənqurma və İnkişaf Bankının 2023-cü il üzrə hesablamalarına görə Azərbaycan və Mərkəzi Asiya regionu ölkələri ciddi iqtisadi inkişafa nail olublar. Bu güclü inkişaf sanksiyalar altında olan Rusiyadan miqrasiya və oradan daxil olan pul vəsaitləri ilə əlaqələndirilir. Bundan əlavə, regional idxal və ixrac sahəsində də artım müşahidə edilib, o cümlədən Çin ilə biznes əlaqələri var. 2024-cü ildə də həmin müsbət tendensiyanın davam edəcəyi gözlənilir. Bu inkişaf sizin ölkəniz üçün nə deməkdir?

**Prezident İlham Əliyev:** Azərbaycan haqqında danışarkən deməliyəm ki, bizim iqtisadi inkişafın təməlində sizin sadaladığınız amillər deyil, əsasən tərəfimizdən aparılmış islahatlar dayanır. Biz iqtisadiyyatımızı şaxələndirməyə, neft və qaz sektorundan asılılığı azaltmağa nail olmuşuq. Ancaq neft və qaz sektoru iqtisadiyyatımızın əsas hissəsi olmaqda davam edir. Bu il neft hasilatının cüzi aşağı düşməsi səbəbindən bizim iqtisadi artımımız nisbətən zəifdir. Lakin ötən illərə nəzər salsaq görərik ki, son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) dörd dəfə artıb və bu, çox əhəmiyyətli nailiyyətdir. Bununla yanaşı, biz düşünülmüş sosial siyasət həyata keçirə bilmişik. Son 20 ildə biz yoxsulluq səviyyəsində yaşayan əhalinin sayını təqribən 50 faizdən 5,5 faizə endirə bilmişik. Bu onu nümayiş etdirir ki, enerji layihələrinin həyata keçirilməsi nəticəsində əldə edilmiş sərvət əhalimizin bütün seqmentləri arasında ədalətli bölünüb.

Biz, həmçinin xarici borcumuzun səviyyəsinin azaldılması istiqamətində fəal işlədik və bu gün bu rəqəm ÜDM-in 10 faizindən aşağıdır. Növbəti il üçün hədəf ÜDM-in 7 faizidir. Bu isə Azərbaycanın iqtisadiyyatının dayanıqlılığını nümayiş etdirir. Biz ümid edirik ki, gələn il iqtisadi artım daha böyük olacaq. Lakin həmin rəqəmlər, əslində, iqtisadiyyatın səmərəliliyi və insanların yaşayış standartlarının 100 faizini əks etdirmir. Elə ölkələr var ki, iqtisadi artımı olduqca aşağı səviyyədədir, lakin iqtisadiyyatı çox inkişaf etmişdir.

Beləliklə, ölkənin ÜDM-i nə qədər çoxdursa, artıma nail olmaq da o qədər çətin olur. Xüsusilə də bugünkü geosiyasi vəziyyətdə. Çünki bizim iki qonşumuz və əsas ticarət tərəfdaşlarımızdan olan Rusiya və İran sanksiya altındadır. Bunu nəzərə almaq lazımdır.

Ancaq bizim 2030-cu il üçün baxışımızın hədəfi və strategiyası öz resurslarımıza, maliyyə imkanlarımıza əsaslanır və qarşıdan gələn illərdə iqtisadi artımı təmin edəcək sahələrə yerli və xarici investisiyaların qoyuluşundan ibarətdir.

**Müxbir: İnkişaf və investisiya üçün gələcəkdə hansı sahələri görürsünüz?**

**Prezident İlham Əliyev:** Hökumətin siyasətinə gəldikdə, bizim əsas dövlət xərclərimiz azad edilmiş Qarabağa və Şərqi Zəngəzura yönləndiriləcək. Birincisi, ona görə ki, biz keçmiş məcburi köçkünləri mümkün qədər tez yerləşdirməliyik. 2026-cı ilin sonunadək biz 140 min insanı yerləşdirməyi planlaşdırırıq. Bunun üçün isə biz infrastruktura, yaşayış yerlərinin inşasına və sosial infrastruktura böyük vəsait yatırmalıyıq. Bununla yanaşı, 30 il işğal altında olmuş bu ərazilərin kənd təsərrüfatı, hidroelektrik enerjisi, günəş və külək enerjisi, turizm kimi sahələrdə böyük potensialı var. Bu, dövlət investisiya proqramının əsas sahəsi olacaq.

Xarici sərmayələrə gəldikdə, əlbəttə, yanacaq enerjisi sahəsinə investisiyaların qoyuluşu davam edəcək. Çünki təbii ehtiyatlar baxımından Azərbaycanda böyük potensial var, Avropada Azərbaycan qazına böyük ehtiyac var və bu ehtiyac artmaqdadır. Lakin çox əhəmiyyətli inkişaf bərpaolunan enerji mənbələri ilə bağlıdır. Hesab edirəm ki, bu, birbaşa xarici investisiyaların əsas istiqaməti olacaq. Biz artıq ötən ay regionun ən böyük, 230 meqavat gücündə olan və xarici investorlar tərəfindən tam maliyyələşdirilmiş günəş elektrik stansiyasının açılışını etdik. Növbəti 5-6 ildə isə biz 10 qiqavat həcmində günəş və külək enerjisi istehsal etməyi planlaşdırırıq. Zənnimcə, rəqəmsal transformasiya gündəliyimizlə yanaşı, sərmayə qoyuluşu üçün əsas sahələr bunlar olacaq.

**Müxbir: Siz regionunuzda nəyi müşahidə edirsiniz - rəqabət, yoxsa əməkdaşlıq?**

**Prezident İlham Əliyev:** Azərbaycana gəldikdə mən əməkdaşlıq görürəm. Bu da ölkəmizin siyasəti ilə bağlıdır. Biz hər zaman Azərbaycanı istənilən rəqabətdən, geosiyasi mübarizədən və ya böyük dövlətlərin toqquşmasından qorumaq istəmişik və hesab edirəm ki, buna müvəffəq olmuşuq. Azərbaycan bir çox böyük beynəlxalq oyunçular tərəfindən etibarlı tərəfdaş hesab edilir və biz bu əməkdaşlığın real nəticələrini görürük. Azərbaycanda enerji sahəsinin inkişafına nəzər salsanız görərsiniz ki, burada geniş beynəlxalq təmsilçilik var. Nəqliyyat sahəsinə baxsanız görərsiniz ki, hər iki - Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycandan keçir və bizim qonşularımız, müxtəlif regionlarda olan çoxsaylı ölkələr bundan faydalanır.

Siyasi inkişafa gəldikdə, burada da Azərbaycan müstəqil xarici və daxili siyasətə malik ölkədir və bu siyasəti milli maraqlara əsaslanaraq yürüdür. Əsas amillərdən biri ölkəni qarşıdurma, yaxud rəqabət arenasına çevirməməklə dövləti mənfi xarici təsirdən və daxili işlərə müdaxilədən qorumaqdır. Beləliklə, biz bu riskləri azaltmağı uğurla bacardıq. Bu səbəbdən bu gün Azərbaycan böyük beynəlxalq potensiala, müsbət beynəlxalq reputasiyaya malik ölkədir. Elə bir ölkə ki, son 20 ildə 300 milyard dollardan artıq sərmayə cəlb edə bilib.

**Müxbir: Enerji təchizatı məsələsi son iki ildə Avropada ən çox müzakirə olunan mövzulardan biridir. Sizin ölkənizin enerji biznesi ilə bağlı baxışınız nədən ibarətdir?**

**Prezident İlham Əliyev:** Bizim enerji sahəsinin inkişafı neft hasilatından təbii qaz istehsalına keçid edib. Bununla yanaşı, bizim neft hasilatımız və ixracımız hələ də bir çox ölkənin enerji təhlükəsizliyinin bir hissəsidir. Üç il öncə 3500 kilometr uzunluğunda inteqrasiya edilmiş qaz boru kəmərlərindən ibarət olan Cənub Qaz Dəhlizinin başa çatdırılması Azərbaycana özünün qaz təchizatının coğrafiyasını genişləndirmək imkanı yaratdı. Bu gün biz Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Rumıniyaya qaz ixrac edirik. Həmçinin biz Macarıstan və Serbiya ilə müqavilələr imzalamışıq. Bununla yanaşı, Albaniya da bizim qazın paylanılmasına dair planlarımıza daxildir.

Baxın, Avrasiyada və əsasən də Avropada neçə ölkə bizim tərəfdaşımızdır və Azərbaycan qazına olan tələbat artmaqdadır. Biz Rusiyaya qarşı sanksiyalara görə Avropa qitəsinə qaz təchizatının artırılması ilə bağlı Avropa Komissiyasının müraciətinə müsbət cavab verdik. Bu, bizim işgüzar əlaqələrimizin vacib hissəsi olmaqda davam edəcək.

*Ardı Səh. 6*

# “Biz beynəlxalq arenada müstəqil siyasət yürütməyə davam edəcəyik”

Əvvəli-Səh-5

Eyni zamanda, mən artıq bərpaolunan enerji sahəsinə toxundum. Bu gün Bakıda olduqca küləkli gündür və bu, normal hava şəraitidir və biz xüsusilə də Xəzər dənizində nəhəng potensiala malikik. Artıq 10 qiqavat həcmində külək və günəş enerjisi layihələrinə dair müqavilə və anlaşma memorandumları imzalanıb. Bu, Azərbaycana yanacaq enerjisindən bərpaolunan enerjiyə rahat keçid imkanı verəcəkdir. Bununla yanaşı, Avropa istehlakçıları da yaşıl enerji ilə təmin ediləcək.

**Müxbir: Ölkənizin iqtisadi inkişafı ilə bağlı risklərə dair narahatlığınız nədən ibarətdir?**

**Prezident İlham Əliyev:** Səmimi desəm, mən hər hansı bir risk görmürəm. Çünki bu günədək bizim iqtisadi inkişafımız müsbət olub, hətta daha mürəkkəb geosiyasi vəziyyətdə belə. Hətta işğal dövründə bizim iqtisadiyyatımız inkişaf edib. İndi isə ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etmişik. Biz genişmiqyaslı iqtisadi islahatlar aparırıq ki, büdcədə daha çox vəsait toplansın. Biz gömrük və vergi inzibatçılığı sahəsində olduqca uğurlu islahatlar həyata keçirmişik. Biz bütün dövlət şirkətlərimizdə korporativ idarəçilik sistemi yaratmışıq və bunun bəhrəsini görürük.

Əlbəttə, bağlantı layihələrindən böyük həcmdə mənfəət əldə olunacaq. Artıq qeyd etdiyim kimi, biz Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərindən Azərbaycan ərazisindən keçən, müxtəlif istiqamətlərə daşınan 10 milyonlarla ton əlavə yük gözləyirik. Bu, məşğulluq, əlavə vəsait, Azərbaycanın geosiyasi əhəmiyyəti deməkdir. Regionumuzun, Avrasiyanın xəritəsinə baxsanız görərsiniz ki, bütün əsas nəqliyyat marşrutları bizim ərazidən keçir. Biz ən müasir nəqliyyat infrastrukturunu yaratmışıq. Bu da əlavə imkanlar yaradacaq. Üstəgəl yüz minlərlə keçmiş məcburi köçkünü məskunlaşdırmağı planlaşdırdığımız Qarabağ və Şərqi Zəngəzurun azad edilmiş əraziləri - bu da əlavə aparıcı qüvvə olacaqdır. Beləliklə, səmimi desəm nə iqtisadi sahədə, nə də digər sahədə ölkəmiz üçün hər hansı bir potensial riskləri görmürəm.

**Müxbir: Yəni, heç bir risk yoxdur?**

**Prezident İlham Əliyev:** Bu günə olan vəziyyətə mən risk görmürəm. Ola bilsin, potensial risklər sərhədlərimizin xaricindən qaynaqlana bilər. Azərbaycanın daxilində risklər yoxdur. Bizim çox sabit siyasi sistemimiz var, xalqımızın çox güclü birliyi var, xüsusilə işğal olunmuş ərazilərimizin azad edildiyi tarixi Qələbədən sonra. Bizim iqtisadi fəaliyyətimiz uğurludur. Bizim iqtisadiyyatımız özümüzü təmin edir, biz xarici kreditlərdən asılı deyilik. Qeyd etdiyim kimi, növbəti il xarici borc ÜDM-in sadəcə 7 faizini təşkil edəcək. Bizim konvertasiya olunan valyuta ehtiyatlarımıza və xarici borcumuza baxsanız görərsiniz ki, konvertasiya olunan valyuta ehtiyatlarımız borcdan on dəfə çoxdur. Beləliklə, başqa sözlə desək, biz bir ay içində xarici borcumuzu ödəyə bilərik. Dünyada bunu edə biləcək çox ölkə yoxdur. Əsas beynəlxalq aktorlarla yaxşı siyasi əlaqələri olan, özünü təmin edən iqtisadiyyat və ölkədəki siyasi sabitlik və birlik - bütün bu amillər onu göstərir ki, bizdə daxili risklər yoxdur. Xarici risklər, bəli var, lakin bu sərhədlərimizin xaricindəki vəziyyətdən asılı olacaq. Sərhədlərimizin xaricində Şimala doğru müharibə gedir, Yaxın Şərqdə qeyri-sabit vəziyyət mövcuddur, regionumuzda potensial gərginliklər var. Beləliklə, bu, Azərbaycan üçün potensial risk ola bilər. Bu məqsədlə biz sərhədlərimizin müdafiəsinə daha çox diqqət yetirməliyik ki, sərhədlərimiz dostlarımız üçün açıq olsun və bizə zərər vermək istəyənlər üçün isə bağlı qalsın.

**Müxbir: SPECA Proqramı iştirakçı ölkələrin iqtisadiyyatları üçün nə dərəcədə əhəmiyyətlidir?**

**Prezident İlham Əliyev:** Bu gün SPECA Proqramı öz 25 illik yubileyini qeyd edir və mən Mərkəzi Asiyadan olan həmkarlarımıza bizim Zirvə görüşünün keçirilməsi təşəbbüsünü dəstəklədiklərinə görə, - hansı ki, SPECA Proqramının tarixində ilk Zirvə görüşüdür, - minnətdaram.

## *İlham Əliyev: “Biz istəyirik ki, Ermənistan nə bu gün, nə də gələcəkdə ərazi bütövlüyümüzü sual altına qoymasın”*

Əslində, bu Proqram Mərkəzi Asiya və Azərbaycan arasında qarşılıqlı iqtisadi əlaqəyə əsaslanır və bu gün biz bu qarşılıqlı əlaqənin yeni dinamikasının şahidi oluruq. İqtisadi göstəricilərə, ikitərəfli səfərlərin dinamikasına nəzər salsanız görərsiniz ki, son iki ildə Azərbaycan və bütün Mərkəzi Asiya ölkələri arasında və Mərkəzi Asiya ölkələrinin özləri arasında fəal qarşılıqlı əlaqə görünməmiş dərəcədə yüksəkdir. Beləliklə, bu, yeni reallıqdır və biz bundan faydalanmalıyıq.

Bizim SPECA Proqramına üzv olan bütün ölkələrlə mükəmməl əlaqələrimiz var. Bizim indi çoxlu investisiya layihələrimiz var, - Azərbaycanın Mərkəzi Asiyada investisiyalarını, Mərkəzi Asiyanın Azərbaycanda investisiyalarını nəzərdə tuturam. Bizim Şərq-Qərb Trans-Xəzər nəqliyyat marşrutunun bağlılıq layihələri vardır. Bu, Mərkəzi Asiya ölkələri üçün Qara dəniz, Aralıq dənizi və inteqrasiya olunmuş bağlılıq layihələri vasitəsilə Avropa ilə ən cəlbedici nəqliyyat bağlantısıdır. Biz siyasi müstəvidə çox müsbət dinamikanı müşahidə edirik, çünki indiki çətin geosiyasi vəziyyətdə SPECA Proqramına üzv olan ölkələr bu gün sabitlik nümayiş etdirir. Bu, ən vacib amillərdən biridir. Çünki sabitlik olmasa, investisiya, iqtisadi inkişaf və təhlükəsizlik olmaz. Bu gün SPECA Proqramına üzv olan ölkələrə baxsanız görərsiniz ki, Mərkəzi Asiya və Azərbaycan geosiyasi sabitlik ərazisidir, baxmayaraq ki, yaxınlıqda risklər də mövcuddur. Mərkəzi Asiya ölkələri üçün bu risklər Azərbaycanla müqayisədə hətta daha da yüksəkdir. Odur ki, bu, qeyd etdiyim ölkələrin uğurunun mühüm amili kimi nəzərə alınmalıdır.

İyirmi beş il bundan əvvəl hamımız tamamilə başqa bir vəziyyətdə idik. Söhbət iqtisadi inkişafdan, irimiqyaslı sosial problemlərdən gedir və biz həm də müstəqillik yolunun birinci mərhələsini yaşayırdıq. İndi biz artıq uğur haqqında məlumat verə bilərik. Biz Bakı Expo Mərkəzində sərgi təşkil etdik. Hesab edirəm ki, bu, bizim ölkələrin nailiyyətlərini çox yaxşı əks etdirir. Bunlar bizim nailiyyətlərin kiçik bir hissəsidir, amma buna baxmayaraq, gördüyümüz işlərin çox yaxşı təcəssümüdür. Azərbaycanın xarici siyasət prioritetlərindən biri Mərkəzi Asiya ölkələri ilə daha fəal əməkdaşlıqdan ibarətdir və biz Bakıda keçirilən SPECA Zirvə görüşünü bu siyasətin bir hissəsi olan amillərdən biri hesab edirik.

**Müxbir: Azərbaycan Şərq və Qərb arasında çox strateji-coğrafi mövqedə yerləşir. Beynəlxalq arenada ölkənin strategiyası nədən ibarətdir?**

**Prezident İlham Əliyev:** Beynəlxalq arenada biz müstəqil siyasət yürütməyə davam edəcəyik. Biz dördüncü ildir ki, BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına sədrlik edirik. Bir çox üzv ölkənin - 120 üzv ölkənin ümumi rəyinə əsasən Azərbaycan Qoşulmama Hərəkatına yeni ölçü və dinamika verməkdə önəmli rol oynamışdır. Biz Qoşulmama Hərəkatının institusional inkişafı ilə bağlı çoxlu addımlar atdıq, parlament və gənclər platformalarını yaratdıq, qadınlar üçün platformanın yaradılması üzərində işlədik. Biz COVID pandemiyası məsələsi ilə bağlı çox fəal olmaqla 80-dən çox ölkəyə yardım etdik. Beləliklə, bizim Qoşulmama Hərəkatında sədrliyimiz bizə siyasətimizi, imkanlarımızı nümayiş etdirməyə şərait yaratdı və yeri gəlmişkən, bizim sədrliyimiz yekdil qərarla əlavə bir il uzadılmışdır. 120 ölkə, onların heç də hamısı bir-biri ilə yaxşı münasibətdə deyil, lakin Azərbaycana gəldikdə onların hamısı yekdilliklə bizi dəstəklədi. Beləliklə, bu, beynəlxalq dəstəyi ən yaxşı şəkildə nümayiş etdirir. Bəzən bəzi siyasətçilər beynəlxalq birlik haqqında danışdıqda onlar ola bilsin ki, onlarla ölkəni nəzərdə tuturlar. Lakin beynəlxalq birlik 200-dən artıq ölkədən ibarətdir və bu ölkələrin əksəriyyəti Azərbaycanı dəstəkləyir. Bu, yalnız bir istiqamətdir.

Bizim qonşularımızla münasibətlərimiz yaxşı balanslaşdırılıb, dostluğa və qarşılıqlı marağa əsaslanır. Bizim Avropa təsisatları ilə münasibətlərimizin öz müsbət dinamikası var. Mən artıq enerji layihələrini qeyd etdim, Avropa bizdən dəstək istədikdə bizim Avropanı necə dəstəklədiyimizi nəzərdə tuturam. Biz bunu ona görə etdik ki, həmişə bizdən kömək istəyənlərə kömək etməyə çalışırıq. Bizim müsəlman ölkələri ilə münasibətlərimiz həmrəylik və tərəfdaşlıq nümunəsidir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının ən fəal üzvlərindən biri hesab olunur. Beləliklə, bu, əslində, beynəlxalq birliyin deməkolar ki, bütün üzvlərini əhatə edir və bizim siyasətimiz həmişə kiməsə dəstək lazım olduqda ona dəstəyin göstərilməsinə və bütün ölkələrə dost münasibətin nümayiş etdirilməsinə hədəflənib. İndi isə - ərazi bütövlüyümüz və suverenliyimizin bərpasından sonra Azərbaycanın beynəlxalq arenada imkanları, əlbəttə ki, qat-qat böyük olacaq. Döyüş meydanında öz ərazisini, öz ləyaqətini qorumuş ölkənin beynəlxalq nüfuzu və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirmiş Azərbaycanın nüfuzu, əlbəttə ki, indi kəskin şəkildə yüksəlib.

**Müxbir: Bu ilin yayında “Euronews”a müsahibə zamanı demişdiniz, ümid edirsiniz ki, ilin sonunadək Ermənistan və Azərbaycan arasında sülhə nail olunacaq. Xüsusilə on minlərlə insanın evlərini tərk etməli olduqlarından sonra hələ də sülhə nail olunacağını düşünürsünüz? Bu regionun dinamikası üçün növbəti mərhələdə onu nə gözləyir?**

**Prezident İlham Əliyev:** Bəli, vaxt qrafiki ilə bağlı mən nikbin fikirdə idim, çünki biz Azərbaycanın özünün hazırladığı sülh sazişinin ilkin layihəsi ilə bağlı şərhləri bir neçə dəfə Ermənistanla mübadilə etmişdik. Bundan sonra isə iki ölkə arasında altı dəfə şərhlər mübadilə edilmişdir və keçən dəfə “Euronews”a bunun haqqında danışdıqda mən ümid edirdim ki, Ermənistan bizim təkliflərin nəzərdən keçirilməsi vaxtını uzatmayacaq. Biz sentyabrın 11-də onlara sonuncu şərhlərimizi təqdim etmişdik və onlardan cavabı yalnız iki gün əvvəl almışıq. Beləliklə, təqribən iki ay yarımdır ki, onlar bir neçə səhifədən ibarət mətn layihəsini nəzərdən keçiriblər. Bu, nə deməkdir? O deməkdir ki, onlar süni olaraq prosesi ləngitmək istəyirlər. İndi noyabrın sonudur və ilin axırına qədər sülh sazişinin imzalanması ilə bağlı ümidlər o qədər də nikbin deyil. Lakin hesab edirəm ki, zaman qrafiki o qədər də vacib deyil. Vacib olan hər iki ölkənin gündəliyidir. Məhz Azərbaycan işğaldan və etnik təmizləmədən əziyyət çəkib. Bir milyon azərbaycanlı Ermənistan hökuməti tərəfindən deportasiya edilib. Təxminən sahəsi 15 min kvadratkilometr olan ərazi dağıdılıb.

Bununla belə, sülh sazişini imzalamaq və delimitasiya işlərini başlamaq üçün təklif verən ölkə biz olduq. Bir sözlə, hazırda Qarabağ məsələsi bitdikdən sonra düşünürəm ki, Ermənistan bizimlə razılığa gəlməkdə daha həvəsli olacaq. Çünki suverenliyimizin bərpası və Qarabağda qeyri-qanuni separatçı rejimin ləğv edilməsi ilə, fikrimcə, Ermənistana daha cəsarətli davranmağa və ya danışıqlara getməyə mane olan əsas amil artıq mövcud deyil.

Bir sözlə, biz qeyd etdiyim kimi, iki gün əvvəl aldığımız ən son təklifləri dəyərləndirəcəyik və öz şərhlərimizi verəcəyik. Bununla yanaşı, biz müxtəlif rəsmilər arasında və fərqli kanallar vasitəsilə işçi səviyyədə təmasları saxlayırıq. Düşünürəm ki, sülh üçün alternativ yoxdur. Əgər sülh sazişi imzalanmasa, bu, bütöv bölgə üçün çox pis olacaq. Biz istəyirik ki, Cənubi Qafqaz bölgəsində hər hansı risk olmasın. Əlbəttə, biz istəyirik ki, Ermənistan nə bu gün, nə də gələcəkdə ərazi bütövlüyümüzü sual altına qoymasın və Azərbaycana qarşı hər hansı ərazi iddialarından tam əl çəksin.

**Müxbir: Beləliklə, nəhayət ki, sülhə nail olmaq üçün şərtlər nədən ibarətdir?**

**Prezident İlham Əliyev:** Bilirsiniz, biz sülh sazişi üçün əsas götürüləcək beş təməl prinsipi hazırladıq: bir-birinin ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması; gücdən istifadə etməmə; bir-birinə ərazi iddialarının olmaması; iki ölkə arasında kommunikasiyaların açılması və münasibətlərin normallaşması; və bir sıra digər mühüm amillər var. Bütün bunlar beynəlxalq hüquqa əsaslanır. Danışıqlar prosesinin təxminən üç ili ərzində, Ermənistan hər zaman sülh sazişinə Qarabağın erməni azlığına dair müddəanı salmaq istəyirdi. Bizim mövqeyimiz ondan ibarət idi ki, bu, bizim daxili işimizdir.

Ardı Səh. 7

# "Biz beynəlxalq arenada müstəqil siyasət yürütməyə davam edəcəyik"



## Prezident: "Avropada Azərbaycan qazına böyük ehtiyac var və bu ehtiyac artmaqdadır"

Əvvəli-Səh-6

Əgər onlar Azərbaycanda erməni azlığı məsələsini əks etdirmək istəyirlərsə, onda biz də otuz il əvvəl Ermənistandan qovulmuş azərbaycanlı azlığı məsələsini daxil etmək istərdik. Özü də Ermənistanda azərbaycanlıların sayı ermənilərin Azərbaycandakı sayından daha çoxdur və təxminən 300 min insan təşkil edir. Bir sözlə, mövqeyimiz belədir ki, həmin məsələ qarşılıqlı olmalıdır. Biz iki milli azlığın məsələsini, onların hüquqları və təhlükəsizliyini, o cümlədən qayıtmaq hüququnu qeyd edək. Yəni, təkcə ermənilərin Azərbaycana qayıtması deyil, o cümlədən azərbaycanlıların Ermənistana qayıtması məsələsini qoyuruq. Azərbaycanlıların 30 il əvvəl qovulması və ermənilərin iki ay əvvəl ölkəmizi tərk etmək qərarı arasında fərqin əhəmiyyəti yoxdur. Fakt, sadəcə, ondan ibarətdir ki, bunlar qarşılıqlı olmalıdır. Yaxud da ki, biz sülh sazişində bu məsələni qeyd etmirik. Bir sözlə, bu vaxta qədər, biz həmin məsələ ilə bağlı Ermənistandan hər hansı aydın anlaşma görmədik. Əgər Ermənistan hər iki milli azlığa eyni yanaşmanın tətbiq edilməsinə razılaşarsa və ya onu tam əks etdirməsə, onda sülh əldə oluna bilər, çünki həmin məsələ bizimlə danışıqlar aparan Ermənistan üçün əsas manеə idi. Bir sözlə, görəcəyik, bundan sonra necə olacaq. Səmimi desək, mən hazırda məntiq nöqteyi-nəzərindən sülh sazişinin imzalanmasına hər hansı ciddi manеə görmürəm.

Biz bəyan edirik ki, bunu imzalamalıyıq və onlar da deyirlər ki, bu saziş imzalanmalıdır. Lakin biz buna nail olmalıyıq. Bizim təklifimiz ictimaiyyətə açıqlandı. Bəhs etdiyim həmin beş məşhur prinsipi biz ictimaiyyətə açıqladıq. Bunlar bəllidir. İstənilən mühüm beynəlxalq tərəfin də etirazı yoxdur, çünki bütün həmin prinsiplər beynəlxalq hüququn fundamental prinsipləridir. Ermənistan, sadəcə, onlara əməl etməlidir. Onlar ərazi bütövlüyümüzü sual altına qoymaq və ərazimizdə separatçılığa rəvac vermək kimi bütün cəhdlərinə son qoymalıdırlar, çünki Qarabağ Azərbaycanın hissəsidir və bu, hamı, o cümlədən Ermənistanın özü tərəfindən etiraf edilir. Məhz Ermənistanın baş naziri 2019-cu ildə Xankəndidə böyük nümayiş zamanı demişdir: "Qarabağ Ermənistandır". Bu, danışıqlar prosesinin sonu demək idi, çünki bundan sonra danışıqlar üçün heç bir şey qalmadı. Beləliklə, İkinci Qarabağ müharibəsi üçün səbəb məhz Ermənistan hökuməti idi. İndi isə həmin şəxs artıq "Qarabağ Azərbaycandır" deyir. Bu, yaxşı haldır, irəliləyişdir. Biz irəliləyişi hər zaman dəstəkləyirik, lakin hazırda "Qarabağ Azərbaycandır" dedikdə, onlar gərək bunun altında öz imzasını qoysunlar və biz bunu gözləyirik.

**Müxbir: Bəs, öz evlərini tərk etmiş insanlar necə?**

**Prezident İlham Əliyev:** Öz evlərini tərk etmiş insanlara gəldikdə, əvvəlcə, bu, onların öz qərarı idi. Qarabağ erməniləri ilə bağlı ictimaiyyətə verdiyimiz bəyanat və sonradan atdığımız addımlar göstərdi ki, biz istəyirdik onlar qalsınlar. Biz açıq şəkildə elan etdik və mən antiterror əməliyyatı başa çatdıqdan sonra Azərbaycan xalqına müraciətimdə bildirdim ki, onlar qala bilər. Biz elektron qeydiyyat portalını açdıq. Qayıtmaq istəyən hər kəsin belə bir hüququ var. Onların mülkiyyəti lazımi dərəcədə qorunur. Bütün tarixi və dini yerlər lazımınca qorunur.

Geri qayıtmaq üçün onlar müəyyən qaydalara əməl etməlidirlər və mən antiterror əməliyyatının keçirilməsindən bir neçə ay əvvəl demişdim ki, qalmaq istəyənlər Azərbaycan vətəndaşlığı üçün müraciət etməlidirlər. Çünki insanlar başqa ölkənin vətəndaşı olmaqla Azərbaycanda necə yaşaya bilərlər? Ya vətəndaşlıq, ya iş icazəsi, ya da yaşayış icazəsi olmalıdır. Onlar dırnaqarası "dağlıq qarabağ respublikasında" yaşadıqlarını deyərək Azərbaycanda yaşaya bilməzlər. Çünki dırnaqarası "dağlıq qarabağ respublikası" mövcud deyil. Onlar bunu öz xəyallarında, mifologiyasında uydurublar. Onlar Azərbaycan vətəndaşları olaraq Azərbaycanda yaşamaq istəyirlərsə, əlbəttə ki, bunu edə bilərlər. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Azərbaycanda bir çox etnik qruplar var. Bu etnik qrupların bəziləri, bir neçəsi, onlara mənsub olan insanlar Qarabağda erməni əhalisindən qat-qat çoxdur. Onların hamısı sülh içində yaşayır, onlar bütün hüquq və təminatlardan faydalanırlar. Bizim Qarabağ ermənilərinə etdiyimiz təklifdə hansı ki, yeri gəlmişkən ictimai şəkildə açıqlanmışdır, biz, həmçinin onların hüquqlarını da nəzərə almışdıq. Onların dil, tədris, din, bələdiyyə hüquqlarını nəzərə almışdıq. Onlar bələdiyyə seçkiləri vasitəsilə öz nümayəndələrini seçə bilərlər və orada yaşamağa davam edə bilərlər. Tərk etmək qərarı onların öz qərarı idi və bizim indi əldə etdiyimiz məlumata əsasən bu dırnaqarası "dağlıq qarabağ respublikası"nın dırnaqarası "sabiq rəhbərləri"nin qəsdən etdiyi hərəkət idi. Onlara oranı tərk etməyə ehtiyac yox idi, lakin onlar tərk etmək qərarını verdikdə biz onları dayandıra bilməzdik. Biz onlar oranı sülh şəraitində tərk etsinlər deyə, onlara maksimum dərəcədə rahat şərait yaratdıq. Azərbaycanlılara qarşı tam əksi edilmişdir. Onlar otuz il bundan əvvəl ya qətlə yetirilmiş, ya da deportasiya olunmuş, işgəncələrə məruz qalmış, həbs edilmişdir və onların bəziləri yüksək dağlıq ərazilərı aşmaq məcburiyyətində qalaraq həmin ərazilərdə donub ölmüşdür. Bu sənədlərlə təsdiq edilib. Qarabağ bölgəsinin ermənilərinin Ermənistana daxil olmaları da sənədləşdirilmişdir və hər şey humanitar standartlara əsasən edilmişdir. Lakin yenə də sizin suala gəldikdə deyə bilərəm ki, onlar qayıda bilərlər.

Əlbəttə, onlar bizim açdığımız mövcud elektron portalda qeydiyyatdan keçərək geri qayıtmaq, Azərbaycan vətəndaşlığını qəbul etmək istədiklərini bildirməlidirlər. Onların bir neçəsi artıq vətəndaşlıq üçün müraciət edib və hazırda onların müraciətlərinə baxılır. Bəzi ermənilər Qarabağda qalmağa qərar verdilər və indi bizim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Miqrasiya Xidməti onların qeydinə qalır, onları qeydiyyata salır. Ermənilərin hamısı oranı tərk etməyib. Lakin Azərbaycanda yaşamaq üçün, məsələn əgər siz Azərbaycanda yaşamaq istəyirsinizsə siz nə etməlisiniz? Siz iş icazəsi, uzun müddət burada yaşamaq istəyirsinizsə yaşayış icazəsi və ya vətəndaşlıq almalısınız. Başqa halda digər ölkənin vətəndaşı olaraq Azərbaycanda necə yaşaya bilərsiniz? Bu, mümkün deyil. Bu da eyni məsələdir.

Əgər Ermənistandan qovulmuş azərbaycanlı məcburi köçkün ora geri qayıtmaq istəyərsə o, necə qayıda bilər? O geri qayıdıb və Qərbi Azərbaycan Respublikasının sakini olduğunu deməyəcək. Xeyr. O, gəlib vətəndaşlıq və ya iş icazəsi üçün müraciət edəcək. Nəyə görə bu proses burada fərqli olmalıdır? Bu, yalnız belə olacaqdır. Bələdiyyə seçkiləri vasitəsilə onlar öz nümayəndələrini seçə bilərlər və bu nümayəndələr bələdiyyələrə görə məsul şəxslər olacaq. Bütün bu məlumatlar Qarabağ ermənilərinin nümayəndələrinə antiterror əməliyyatından sonra çatdırılmışdır və biz bu məlumatın onlar tərəfindən Qarabağ əhalisinə açıqlanmadığından agah olduqdan sonra biz onu açıqladıq, dərc etdik.

Beləliklə, bu, beynəlxalq norma və standartlara əsasən hüquqi bir prosesdir. Bir daha qeyd etmək istəyirəm, Azərbaycan çoxmillətli ölkədir və Azərbaycandakı heç bir etnik qrupun dini və etnik zəmində heç vaxt heç bir problemi və ya narahatlığı olmamışdır. Azərbaycanı tanıyan istənilən kəs bunu təsdiqləyə bilər. Yeri gəlmişkən, bu gün Azərbaycanın müxtəlif yerlərində erməni əhalisi heç bir problem olmadan yaşayır. Ermənilər və azərbaycanlılar Rusiyada bir yerdə yaşayırlar, Ukraynada bir yerdə yaşayırlar və Gürcüstanda hətta eyni kəndlərdə yaşayırlar. Nəyə görə onlar Azərbaycanda və yaxud Ermənistanda bir yerdə yaşaya bilməsinlər? Hesab edirəm ki, onlar bir yerdə yaşaya bilərlər.

**Müxbir:** Çox təşəkkür edirəm, cənab Prezident.

**Prezident İlham Əliyev:** Təşəkkürlər.

# “Heydər Əliyev və Yeni Azərbaycan”

## *Bu mövzuda konfrans keçirilib*




***Dekabrın 9-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev və Yeni Azərbaycan” mövzusunda konfrans keçirilib.***









Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin universitetin foyesindəki büstü önünə əklil qoyulub, dahi şəxsiyyətin əziz xatirəsi ehtiramla anılıb. Sonra Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbələrinin əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını salamlayıb, konfransın işinə uğurlar arzulayıb. Tahir Budaqov bildirib ki, müasir müstəqil Azərbaycanın banisi, Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın Ümummilli Lideri, dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin zəngin dövlətçilik irsinin tədqiqi, əbədiyaşayar ideyalarının öyrənilməsi, təşviqi və təbliği xüsusi əhəmiyyətə malik olmaqla daim aktual və vacib məsələlərdəndir. Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə elan edilmiş “Heydər Əliyev İli” çərçivəsində çoxsaylı tədbirlərin keçirilməsi də bu baxımdan müstəsna önəm kəsb edir.

YAP Sədrinin müavini diqqətə çatdırıb ki, Ulu Öndərin adı ilə bağlı olan və hazırda Onun siyasi varisi cənab İlham Əliyevin Sədrliyi ilə uğurla inkişaf edərək Azərbaycana böyük nailiyyətlər qazandıran Yeni Azərbaycan Partiyası da Heydər Əliyev ideyalarının təşviqi yönündə müxtəlif tədbirlər reallaşdırmaqdadır: “Cari ilin ötən dövrü ərzində həyata keçirdiyimiz tədbirlər Heydər Əliyev irsinin və ideyalarının yeni nəslə aşılanması, gənc nəslin milli-mənəvi dəyərlər əsasında, vətənpərvərlik və dövlətə sədaqət ruhunda yetişməsinə mühüm töhfə kimi qiymətləndirilə bilər. İnkaredilməz reallıqdır ki, müasir dövlətçiliyimizin sarsılmaz əsaslarını yaradan Ulu Öndər Heydər Əliyevin ideyaları Azərbaycan dövlətinin siyasi-ideoloji sütunu, xalqımızın isə tükənməz mənəvi-siyasi sərvətidir. Çünki Azərbaycanın yeni və müasir dövlətçilik tarixinin müxtəlif mərhələlərini - həm SSRİ, həm də müstəqillik dövrünü əhatə edən dönəmləri Heydər Əliyev siyasətinin xalqımızın və dövlətimizin taleyində hansı tarixi əhəmiyyətə malik olduğunu, Ulu Öndərin xidmətlərinin misilsizliyini əks etdirir. Müdrik dövlət xadimi Sovet ittifaqı dönəmində Azərbaycan SSR-in rəhbəri kimi respublikamızın intibahına müvəffəq olmaqla gələcək müstəqilliyin əsaslarını formalaşdırmışdır. Olduqca mürəkkəb şəraitdə Azərbaycan dilinin respublika konstitusiyasında dövlət dili kimi təsbit edilməsi, milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq ideologiyasının təşviqi isə bu baxımdan xüsusi qeyd edilməlidir. Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi fəaliyyət göstərdiyi dövrdə də ölkəmizin mənafelərini qətiyyətlə qoruyaraq xalqın firavanlığı naminə məqsədyönlü işlər görmüşdür. Müstəqillik illərində isə Ulu Öndərin zamanın çağırışlarına, milli-mənəvi dəyərlərə və dövlətçilik maraqlarına əsaslanan fəaliyyətini iki fərqli tarixi mərhələdə ayrıca dəyərləndirmək lazımdır. O, əvvəlcə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri olaraq blokada vəziyyətindəki muxtar respublikanı ağır sosial-iqtisadi şəraitdən və tənəzzüldən qurtararaq dirçəlişinə nail olmuşdur. Bu mərhələdə Onun liderliyi və xalqın dəstəyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması isə yeni və müstəqil Azərbaycan quruculuğunun əsaslarını formalaşdırmışdır. Heydər Əliyevin respublikamıza ikinci rəhbərlik dönəmini – 1993-2003-cü illəri əhatə edən dövr real dövlət müstəqilliyinin təmin olunması, Azərbaycanın sabitlik və tərəqqi yoluna qədəm qoyması, böyük Zəfərin əldə edilməsi üçün möhkəm təməllərin yaradılması ilə əlamətdardır. Bu mərhələyə nəzər yetirən Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev qeyd etmişdir: “1993-cü il müasir tariximizdə həlledici dönüş nöqtəsidir. Tam qətiyyətlə deyə bilərəm ki, əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsəydi, bugünkü Azərbaycanın mövcudluğu hətta şübhə altına düşə bilərdi”. Əlbəttə, Heydər Əliyevin həmin dövrdə Azərbaycanı iqtisadi böhrandan, siyasi xaosdan qurtarması, Ermənistanın işğalçılıq müharibəsinin qarşısını alması, səmərəli xarici siyasət həyata keçirməklə ölkəmizin beynəlxalq münasibətlər sistemində fəal iştirakını təmin etməsi müasir dövlətçilik tariximizin dönüş nöqtəsi olmuşdur. Bütün bu faktlar təsdiqləyir ki, Heydər Əliyev öz zəngin dövlətçilik təcrübəsi ilə Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə, müstəqilliyi daimi, dönməz və əbədi etməyə nail olmuş, xalqımıza çoxsaylı tarixi nailiyyətlər qazandırmaqla yeni, müasir və müstəqil Azərbaycan reallığını yaratmışdır”.

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, Heydər Əliyev siyasəti Azərbaycan xalqına ən dəyərli milli sərvətimiz olan dövlət müstəqilliyini bəxş etmiş, ölkəmizin demokratiya və sosial-iqtisadi inkişaf yolunda əmin addımlarla irəliləməsini, beynəlxalq münasibətlər sisteminin nüfuzlu dövlətinə çevrilməsini şərtləndirmişdir: “Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan amildir”. Ona görə də haqlı və birmənalı olaraq qeyd edirik ki, müasir müstəqil Azərbaycan Heydər Əliyevin zəngin milli-mənəvi dəyərlərə və çoxəsrlik dövlətçilik ənənələrinə malik xalqımıza ən böyük tarixi və mənəvi-siyasi mirasıdır. 2003-cü ildə xalqımız Heydər Əliyev siyasətinə bir daha qətiyyətli dəstək verərək cənab İlham Əliyevə etimad göstərmiş, Ümummilli Liderin müəyyənləşdirdiyi yolun alternativsizliyini inamla ifadə etmişdir. Bu gün qürur və iftixarla qeyd edirik ki, zamanın Ulu Öndərə başa çatdırmağa imkan vermədiyi işləri Onun siyasi varisi cənab İlham Əliyev müvəffəqiyyətlə yerinə yetirmiş, Heydər Əliyevin arzuları reallığa çevrilmişdir.










Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etməsi ilə müasir dövlətçilik tariximizdə keyfiyyətcə yeni mərhələ başlanmış, ardıcıl nailiyyətlərə imza atılmış, xalq-iqtidar birliyi daha da möhkəmlənmiş, Azərbaycan regionda aparıcı güc mərkəzinə və lider dövlətə, ən əsası isə qalib ölkəyə çevrilmişdir. Heydər Əliyev siyasətinin tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və çağdaş reallıqlara uyğun davam etdirilməsi Azərbaycanı sabitlik və sürətli inkişaf yoluna çıxarmış, məhz bu siyasət nəticəsində iqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən Azərbaycan Qələbə zirvəsinə yüksəlmişdir. Bir sözlə, Heydər Əliyev siyasətinin zirvə nöqtəsi 30 il ərzində Ermənistanın işğalı altında qalmış torpaqların azad olunması, ölkəmizin ərazi bütövlüyünün bərpası və suverenliyinin bərqərar edilməsidir".

Tahir Budaqov vurğulayıb ki, 44 günlük Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm qalibiyyətin ardınca "Heydər Əliyev İli"ndə Prezident İlham Əliyevin komandanlığı ilə qazanılan növbəti hərbi-strateji və diplomatik Qələbə nəticəsində üçrəngli bayrağımızın işğaldan azad edilmiş digər ərazilərdə olduğu kimi, Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə dalğalanması, Azərbaycanın konstitusiya quruluşunun bərpası böyük mənəvi-siyasi əhəmiyyətə malik tarixi hadisədir: "Bu, Heydər Əliyev siyasətinin təntənəsi, Ümummilli Liderin vəsiyyətinin Prezident, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən yerinə yetirilməsidir. Prezident İlham Əliyevin Heydər Əliyev ideyalarına əsaslanan uzaqgörən siyasətinin real nəticəsi olan Böyük Qayıdış prosesi də çoxəsrlik dövlətçilik tariximizin ən parlaq səhifələrindən birinə çevrilməklə daha güclü Azərbaycanın etibarlı bünövrəsini formalaşdırmaqdadır".

"Bu gün tarixi dəyərlərlə müasir reallıqların vəhdətinə əsaslanan, azərbaycançılıq ideologiyasına və dövlətçilik ideyasına söykənən Heydər Əliyev siyasəti Azərbaycana parlaq nailiyyətlər qazandırır, milli qüdrətimiz günbəgün artır. Dövlət başçısının qeyd etdiyi kimi, "Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur". Bütün bu nailiyyətlər və qürurverici reallıqlar təsdiqləyir ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev Ulu Öndərin siyasətinə sadiqdir və sözü imzası qədər dəyərlidir",-deyən YAP Mərkəzi Aparatının rəhbəri əlavə edib ki, Azərbaycan xalqı hər zaman Heydər Əliyev siyasətinə, Onun parlaq ideyalarına sədaqət nümayiş etdirmişdir.

Tahir Budaqov söyləyib ki, cəmiyyətin bütün təbəqələrini təmsil edən vətənpərvər insanlar kimi, Azərbaycan gəncliyi də bu gün Ulu Öndərin ideyalarının reallaşmasında mühüm rola malikdir: "Prezident İlham Əliyevin milli maraqlara əsaslanan siyasətinə qətiyyətli dəstək ifadə edən gənclərimizin dövlətçilik, azərbaycançılıq, vətənpərvərlik prinsipləri əsasında çalışmaları, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmələri Heydər Əliyev irsinə və ideyalarına sədaqət nümunəsi olmaqla yanaşı, Azərbaycanın inkişafına, qarşıda duran milli hədəflərin reallaşmasına önəmli töhfə kimi yüksək qiymətə layiqdir. Bilirsiniz ki, mütərəqqi baxışlara, zəngin dövlətçilik təcrübəsinə malik olan Ulu Öndər Heydər Əliyev hər zaman tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və zamanın çağırışlarına uyğun siyasət həyata keçirməklə gənclərin inkişafına da xüsusi önəm vermişdir. O, intellektual, milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər gəncliyin yetişməsinə böyük diqqət yetirmiş, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirməklə bugünkü – müasir, qüdrətli və qalib Azərbaycanın sağlam bünövrəsini yaratmışdır. Ona görə də Azərbaycan gəncliyinin Heydər Əliyev siyasətinə sadiq - qəlbən bağlı olması ilə yanaşı, Ulu Öndərin ideyalarının öyrənilməsi və təşviqində yüksək fəallıq nümayiş etdirmələri böyük önəmə malikdir. Prezident İlham Əliyevin 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncamında qeyd edildiyi kimi, "müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir". Təbii ki, milli-mənəvi və siyasi-ideoloji əhəmiyyətə malik bu işdə gənclərin də üzərinə mühüm vəzifələr və böyük məsuliyyət düşür".

"Şübhə yoxdur ki, 2024-cü ilin fevralın 7-ə təyin edilmiş növbədənkənar prezident seçkiləri də yeni, müasir və müstəqil Azərbaycanın qurucusu olan Ümummilli Lider Heydər Əliyevin ideyalarına, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasətinə xalqın dəstəyinin növbəti təzahürü olacaq və bu seçkilərin yüksək vətəndaş fəallığı şəraitində, azad və demokratik keçirilməsinə Azərbaycan gəncliyi də öz töhfələrini verəcəkdir. Heydər Əliyev ideyalarına sədaqət nümayiş etdirərək və Prezident İlham Əliyevin ətrafında sıx birləşərək daha güclü Azərbaycan naminə fəaliyyətinizdə hər birinizə yeni-yeni uğurlar arzulayır, konfransın Ulu Öndərin ideyalarının təşviqi baxımından faydalı olacağına inamımı ifadə etmək istəyirəm",- deyə Tahir Budaqov vurğulayıb.

Sonra elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək 2023-cü ilin ölkəmizin tarixində ən şanlı illərdən biri olduğunu vurğulayıb: "Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi xalqımızın tarixində şanlı səhifə kimi qalacaq. Bu il ərzində Azərbaycanın müxtəlif təhsil müəssisələrində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar tədbirlər keçirilir. Azərbaycan tarixi yeni baxış əsasında öyrənilir, Ulu Öndərin ideyaları təşviq olunur".

Emin Əmrullayev bildirib ki, müstəqil Azərbaycanın bugünkü inkişaf səviyyəsinə çatmasında, dünya birliyində layiqli yer tutmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olub. O qeyd edib ki, Ümummilli Liderin Azərbaycanda elm və təhsilin inkişafında xüsusi rolu var. Məhz Heydər Əliyev tərəfindən 1970-ci illərdə respublikamızda təhsil islahatlarına başlanılmışdı. Nazirin sözlərinə görə, Heydər Əliyevin təhsil şəbəkəsinin artırılması, Azərbaycan vətəndaşlarının keçmiş Sovet İttifaqının ali məktəblərində təhsil alması istiqamətində fəaliyyəti mühüm əhəmiyyət kəsb edir: "Ulu Öndərin ölkəmizə rəhbərliyi dönəmi təhsilin qızıl dövrüdür. O dövrdə məktəb şəbəkəsi böyüdü, ucqar kəndlərdə məktəblər fəaliyyətə başladı. Ötən əsrin əvvəlində bir neçə min ali təhsilli insan var idisə, 1970-ci illərdə bu rəqəm yüz minə çatdı. Yəni Ulu Öndər Heydər Əliyevin 1970-ci illərdə ali təhsillilərin sayının artırılmasında böyük rolu var. Məhz bu dövrdə Azərbaycanda elm və təhsil sahəsində müsbət dinamikanın təməli qoyulub. Azərbaycan dilində tədris verən ümumi təhsil müəssisələrinin sayının artırılması və bu kimi irəliləyişlər məhz Ulu Öndərin adı ilə bağlıdır. 15 minə yaxın gəncin respublikadan kənarda – keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almasının dəstəklənməsi məhz Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə olub".

Nazir diqqətə çatdırıb ki, azərbaycanlı tələbələrin xaricdə təhsilinə dövlət dəstəyi Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş Dövlət Proqramı ilə davam etdirilib. Hədəf ölkəmizdə neft kapitalını insan kapitalına çevirməkdir. 2007-2015-ci illəri əhatə edən Dövlət Proqramına əsasən 3500-ə qədər gəncimiz nüfuzlu xarici ali məktəblərdə təhsil alıb. "Prezident İlham Əliyev Ulu Öndərin əsasını qoyduğu təhsil siyasətini uğurla davam etdirir. Son illərdə Azərbaycanda 3500-ə qədər məktəb tikilib və ya əsaslı təmir olunub. Bu gün Azərbaycan məktəblərində 300 mindən artıq şagird proqramlaşdırma dərslərinə, 100 mindən artıq şagird STEAM dərslərinə cəlb olunub. Ən böyük təhsil hadisələrindən biri "Zəfər tarixi" fənninin tədrisidir. Bu fəndə Vətən müharibəsində qazanılan Qələbə, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli ordumuzun qəhrəmanlığı şagirdlərə aşılanır. Artıq işğaldan azad olunmuş ərazilərimizdə inşası başa çatan və istifadəyə verilmiş məktəblər var. Bir neçə məktəbin isə tikintisi başa çatmaq üzrədir. Bütün bu hadisələr Ulu Öndər Heydər Əliyevin ideyalarının təntənəsidir" ,- deyən Emin Əmrullayev qeyd edib ki, bu gün təhsilimizin təməlində azərbaycançılıq ideologiyası və milli-mənəvi dəyərlərimiz dayanır.

Nazir diqqətə çatdırıb ki, ən mühüm hadisələrdən biri Xankəndi şəhərində Qarabağ Universitetinin təsis edilməsidir: "İnanıram ki, bu təşəbbüs və qərar istər azərbaycanlı gənclər, istərsə də təhsil işçiləri, alimlərimiz üçün çox böyük imkanlar yaradır. Ən vacib imkan isə ondan ibarətdir ki, Qarabağ Universitetində sözün əsl mənasında təhsilə və tədrisə yenidən başlamaq imkanımız var. Birincisi, ənənələri olan Qarabağ diyarına təhsil qayıdır. İkincisi isə, orada bütün istiqamətlərin yenilənməsi, təbii ki, Azərbaycan təhsilinin inkişafına böyük imkanlar açır. Artıq gələn il sentyabrın 15-i tələbələrimizi Xankəndidə görmək istiqamətində işləyirik. Atributların, proqramların, müəllim heyətinin profilinin hazırlanması istiqamətində müəyyən işlərimiz başlayıb. Eyni zamanda, Qarabağ Universitetinin məqsədi digər universitetlərlə rəqabət yaratmaq yox, Azərbaycanın digər universitetlərini bir dəyər ətrafında birləşdirib əməkdaşlıq etmək olacaq".

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektor əvəzi Vazeh Əskərov çıxışında bildirib ki, Prezident İlham Əliyevin 2023-cü ili ölkəmizdə "Heydər Əliyev ili" elan etməsi xalqımız tərəfindən böyük sevinclə qarşılandı: "Başa çatmaqda olan 2023-cü ilin bu günündən dönüb geriyə baxdıqda "Heydər Əliyev ili" çərçivəsində istər ölkəmizdə, istərsə də sərhədlərimizin hüdudlarından kənarda xalqımızın Ümummilli Liderimizin xatirəsini minlərlə konfrans, forum, yarış və müsabiqələr, sərgilər və s. bu kimi tədbirlərlə minnətdarlıq hissi ilə yad etdiyinin şahidi oluruq. Cari ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Ulu Öndərin 100 illiyinə həsr olunmuş 50-dək müxtəlif konfrans, forum, müsabiqə keçirilib. Onların bir qismi universitetdaxili, bir qismi beynəlxalq tərəfdaşlarımızla birgə ölkəmizin hüdudlarında kənarda təşkil olunub".

Vazeh Əskərov deyib ki, ötən əsrin 70-ci illərindən XXI əsrin əvvəllərinədək ölkəmiz üçün taleyüklü bir dövrdə öz adını əməlləri, cəsarətli addımları və milli təfəkkürü ilə Azərbaycan tarixinə həkk etmiş Heydər Əliyevin çoxşaxəli fəaliyyəti xalqımızın taleyində əbədi iz qoyub: "Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz onu itirmək təhlükəsi qarşısında qalmışdı.

# “Heydər Əliyev və Yeni Azərbaycan”

## *Bu mövzuda konfrans keçirilib*




Əvvəli-Səh-9

Cari ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Ulu Öndərin 100 illiyinə həsr olunmuş 50-dək müxtəlif konfrans, forum, müsabiqə keçirilib. Onların bir qismi universitetdaxili, bir qismi beynəlxalq tərəfdaşlarımızla birgə ölkəmizin hüdudlarında kənarda təşkil olunub”.

Vazeh Əskərov deyib ki, ötən əsrin 70-ci illərindən XXI əsrin əvvəllərinədək ölkəmiz üçün taleyüklü bir dövrdə öz adını əməlləri, cəsarətli addımları və milli təfəkkürü ilə Azərbaycan tarixinə həkk etmiş Heydər Əliyevin çoxşaxəli fəaliyyəti xalqımızın taleyində əbədi iz qoyub: “Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz onu itirmək təhlükəsi qarşısında qalmışdı. Ölkədə müharibə gedirdi, “idarəçilik” isə yalnız xüsusi maraqlara xidmət edirdi və yox dərəcəsində idi, respublikada xaos, anarxiya hökm sürürdü. Milyonlarla insanın arzusu Heydər Əliyevin Bakıya dönüşü və ölkəyə rəhbərliyi idi. Yeganə nicat yolunu Ulu Öndərin qayıdışında görən Azərbaycan xalqı onu təkidlə hakimiyyətə çağırırdı. Belə bir şəraitdə “91-lər” adlanan bir qrup ziyalı, əslində, bütün xalqın iradəsini ifadə edərək Azərbaycanın müstəqillik mübarizəsinin tarixində mühüm bir addım atdı. Tarixi reallıq bundan ibarətdir ki, Heydər Əliyevin rəhbərliyi ilə yaranmış Yeni Azərbaycan Partiyası xalqın müstəqillik uğrunda apardığı mübarizənin layiqli aparıcı siyasi qüvvəsi kimi meydana çıxdı. Azərbaycan xalqının düşüncəsində əsl milli azadlıq və müstəqillik simvolu olmuş Heydər Əliyev, nəhayət, 1993-cü ilin iyununda Azərbaycan dövlətinin rəhbərliyinə qayıtdı. Həmin ilin 3 oktyabr tarixində keçirilən seçkilərdə xalqın böyük etimadı əsasında Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev milli maraqlardan irəli gələn strateji hədəfləri uğurla reallaşdırmaqla ölkənin xilasına, rifah və tərəqqi yoluna çıxmasına, respublikamızın əsl müstəqillik qazanmasına nail oldu”.

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, Ulu Öndərin liderlik qabiliyyəti, fenomenal hafizəsi, nüfuzedici natiqlik bacarığı, dərin və ətraflı biliyi ona əsaslı qərarlar qəbul etməyə, insanların beyninə və qəlbinə asanlıqla yol tapmağa, geniş xalq kütlələri ilə istənilən səviyyədə ünsiyyət qurmağa və onları öz arxasınca aparmağa imkan verirdi: “Əsrin müqaviləsi” ilə reallaşdırılan həlledici neft strategiyası Azərbaycanın uzunmüddətli inkişafına yol açmış oldu və ölkənin siyasi, iqtisadi qüdrətini artıraraq, sonrakı illərdə onun təşəbbüsü və liderliyi ilə regionun və Avropanın enerji təhlükəsizliyini təmin edəcək neçə-neçə yeni transmilli enerji və nəqliyyat layihələrinin həyata keçirilməsinə şərait yaratdı. Bu gün Azərbaycan özünün zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca dövlətlərdən birinə çevrilib”.

V.Əskərov deyib ki, Ümummilli Lider özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq gərgin siyasi fəaliyyəti ilə 2020-ci ildə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığımız tarixi Qələbənin təməllərini yaratdı: “Bu gün xalqımız Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini ona olan böyük sevgi və ehtiram hissi ilə yanaşı, müzəffər xalq olaraq qürur, fəxarət və Prezident İlham Əliyevə minnətdarlıq hissləri ilə qeyd edir. Uğurlu antiterror əməliyyatları sayəsində Azərbaycan Respublikasının üçrəngli bayrağı Xankəndidə dalğalanmağa başladı və müstəqillik qazandığımızdan bəri nəhayət ki, Azərbaycanın dövlət suverenliyi ölkənin bütün ərazisində təmin edildi. 44 günlük Vətən müharibəsində qazandığımız zəfər və torpaqlarımızın azad olunması Prezident İlham Əliyevin uğurlu və uzaqgörən siyasətinin real nəticəsi olmaqla yanaşı, Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsidir”.

Vazeh Əskərov söyləyib ki, Vətən müharibəsində qazandığımız zəfər bütün dünyaya əyani olaraq bir də onu göstərdi ki, müasir, qüdrətli və qalib Azərbaycanın sağlam bünövrəsi yaradılıb, milli ruhda tərbiyə almış, vətənpərvər gənc nəsil yetişib: “Vətənpərvər gəncliyin gerçək nümunəsi Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş universitetimizin tələbələridir. Hər gün minlərlə tələbə ADNSU şəhidlərinin xatirə guşəsinin önündən keçir və özünə doğma Vətənimiz üçün layiqli vətəndaş kimi yetişmək andı verir. Vətənini sevən, onun tərəqqisinə çalışan gənclik Ulu Öndərin ideyaları əsasında yetişən gənc nəsildir. Bu gün işğaldan azad edilmiş, üçrəngli bayrağımızın qürurla və əzəmətlə dalğalandığı ərazilərdə nəhəng bərpa-quruculuq işləri görülür, Müzəffər Ali Baş Komandan İlham Əliyev ilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həmin torpaqlara hər bir səfəri təntənəli Zəfər yürüşünün davam etdiyini göstərir, qalib Azərbaycan Böyük Qayıdışı, dayanıqlı və layiqli məskunlaşmanı yüksək səviyyədə təmin etmək iqtidarında olduğunu bütün dünyaya nümayiş etdirir. Bütün Azərbaycan gəncliyi, yüzlərlə gənc mühəndis işğaldan azad olunmuş torpaqlarımıza həyatın yenidən qayıtması üçün çalışır”.

“Burada toplaşanların, yəqin ki, hamısı bilir – Ümummilli Lider Heydər Əliyev 1939-1941-ci illərdə o zaman Azərbaycan İndustrial İnstitutu adını daşıyan universitetimizdə təhsil alıb. Ali məktəbin 80 illik yubileyi zamanı bu zalda çıxışı zamanı Ulu Öndər bildirmişdi ki, “mənim üçün hər bir ali məktəb doğmadır və hər bir ali məktəbin öz yeri vardır. Amma, mən bu sözləri deməyə bilmirəm, indiki Neft Akademiyası (hazırkı ADNSU) vaxtilə bütün ali məktəblərə nümunə idi. Mən istərdim ki, o, bu gün də nümunə olsun”. Müasir dünyada ali təhsilin mahiyyəti, texnologiyaları dəyişib, çoxsaylı universitetlər yaradılıb, gənclərin qarşısında ölkədə, yoxsa digər dövlətlərin ali məktəblərində təhsil almaq seçimi var, rəqabət böyükdür. Son illər ərzində ölkədə təhsil sahəsində aparılan islahatlar sayəsində ali təhsil sektorunda ciddi irəliləyişlər əldə olunub. 2023-cü ildə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilk dəfə olaraq nüfuzlu QS agentliyinin reytinqlərində yer alıb. Biz bütün fəaliyyətimizlə çalışacağıq ki, Ümummilli Liderin söylədiyi kimi, başqalarına nümunə olan universitet kimi inkişaf edək”,- deyə rektor əvəzi vurğulayıb.




Sonra tədbirdə Yeni Azərbaycan Partiyasının media orqanı olan Yeni TV-nin hazırladığı “Heydər Əliyev və Yeni Azərbaycan” adlı film nümayiş olunub.

Daha sonra çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov ilk olaraq “Heydər Əliyev Siyasi Məktəbi” layihəsi haqqında məlumat verib: “Layihə bizim təşəbbüsümüz və “PAŞA Holding” MMC-nin dəstəyi ilə uğurla icra edilib. Layihənin məqsədi Sabirabad gənclərinin siyasi fəallığının artırılmasından ibarətdir. Layihə çərçivəsində Heydər Əliyevin siyasi fəaliyyəti 6 dövr üzrə rəmzi seçilmiş məkanlarda öyrənilib. Birinci dövr Heydər Əliyevin tələbəlik və gənclik illərini əhatə edib. İkinci dövr Ulu Öndərin dövlət təhlükəsizlik orqanlarında işlədiyi dövrlə bağlı olub. Üçüncü dövr Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik etdiyi illəri əhatə edib. Dördüncü dövr böyük dövlət xadimi Heydər Əliyevin Kremldə çalışdığı illərlə bağlıdır. Beşinci dövr isə 1987-1993-cü illəri əhatə edib. Layihənin altıncı hissəsi 1993-2003-cü illərlə əlaqədardır. 1918-ci ilin mayında Azərbaycan istiqlal bayrağını ucaltdı, müstəqilliyini elan etdi. Bu tarixi bir hadisə idi. Bu müstəqilliyi elan edən şəxsiyyətlər intellektuallar olub. Lakin onların hamısı birlikdə Azərbaycanın istiqlalını cəmi 23 ay qoruyub saxlaya bildilər. 1993-cu ilin iyun ayında da Azərbaycan öz müstəqilliyini yenidən itirmək təhlükəsi ilə üzbəüz idi. Bu zaman xalqın tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Azərbaycanın istiqlal bayrağını o çətin günlərdə zirvəyə qaldırdı və müstəqilliyimizi dönməz etdi. Ona görə də Heydər Əliyevin 1993-cü ilin 15 iyun tarixində hakimiyyətə qayıdışı xalqımızın qurtuluşudur”.

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, Heydər Əliyev Azərbaycanın inkişaf yolunu, xarici siyasətini, ordu quruculuğu strategiyasını müəyyən etdi: “Ulu Öndərin ən böyük xidmətlərindən biri isə əsasını qoyduğu müstəqil Azərbaycanın uğurlu inkişafının davamlılığını təmin etmək, gələcək siyasi varisini hazırlamaq idi. Məhz Heydər Əliyevin siyasi varisi, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüz, suverenliyimiz bərpa olundu, Azərbaycan bütövləşdi. Bütün bunlardan çıxarmalı olduğumuz nəticə odur ki, Azərbaycanın rifahı həmişə Heydər Əliyev irsi ilə bağlı olub. Bu irs bizim milli sərvətimizdir, gücümüzdür. Məhz bu irslə, Azərbaycanın müstəqilliyinin və rifahının qarantı İlham Əliyevlə Zəfər seçkisindən sonra da əmin addımlarla həmişə irəliləyəcəyik”.

YAP Veteranlar Şurasının üzvü Əli Həsənov çıxışında bildirib ki, Heydər Əliyev həm SSRİ dövründə, həm də müstəqillik illərində respublikamıza rəhbərlik etdiyi zaman müstəsna fəaliyyət göstərib, misilsiz işlər görüb: “Heydər Əliyevdə fitri istedad, bacarıq və cəsarət, Vətəninə, xalqına, torpağına bağlılıq var idi. Yeni idarəçilik üçün nə tələb olunurdusa, hamısı var idi. Ulu Öndər 1969-cu ilin iyul ayında Azərbaycanın rəhbəri seçildikdən sonra qısa müddət ərzində respublikamızı ittifaq miqyasında ön sıralara çıxardı. Həmin dövrdə Azərbaycan hər bir sahədə böyük nailiyyətlərə imza atdı. Heydər Əliyevin 1969-1982-ci illərdəki idarəçilik sistemi o vaxtkı SSRİ-nin bütün rəhbərlərinə nümunə idi. Daha sonra Ulu Öndər Heydər Əliyev SSRİ-də yüksək vəzifəyə irəli çəkildi və Onun nəzarətində olan hər bir sahədə tərəqqi baş verdi. Moskvada işlədiyi zaman Heydər Əliyev ittifaq respublikalarının inkişafında da böyük xidmətlər göstərdi”.

YAP Veteranlar Şurasının üzvü qeyd edib ki, 1990-cı illərin əvvəlində respublikada iqtisadi, siyasi xaosun hökm sürdüyü, ölkənin dünya xəritəsindən silinmək təhlükəsinin olduğu dövrdə xalqımızı yalnız Heydər Əliyev kimi şəxsiyyət xilas edə bilərdi: “Təcrübə, bilik, bacarıq, cəsarət, xalqın Ona olan inamı, ölkədəki iqtisadi, siyasi, sosial durumdan xəbərdar olması və xalqının psixologiyasına bələdçiliyi imkan verdi ki, ölkəni xilas etsin. Xalqın tələbi ilə hakimiyyətə yenidən qayıtdıqdan sonra ictimai-siyasi sabitliyi bərpa etdi, milli inkişaf strategiyasını müəyyənləşdirdi, bazar iqtisadiyyatına keçidə başladı, idarəetmənin qanunvericilik bazasını yaratdı, inzibati strukturu yenidən qurdu, vətəndaş həmrəyliyinə nail oldu, çoxpartiyalı siyasi sistemə keçidi təmin etdi. Eyni zamanda, Heydər Əliyev müstəqil Azərbaycanı bütün dünyada tanıtdı, ölkənin beynəlxalq birliyə inteqrasiya olunmasında vacib addımlar atdı. “Əsrin müqaviləsi” kimi mühüm sənədin imzalanmasında da Heydər Əliyevin beynəlxalq müstəvidəki nüfuzu müstəsna rol oynadı”. Əli Həsənov deyib ki, Ulu Öndər Heydər Əliyevin güclü iqtisadiyyat və güclü ordu quruculuğu istiqamətində həyata keçirdiyi siyasət Azərbaycanın işğal altında olan torpaqlarının azad olunmasına hesablanmışdı və belə də oldu: “Bu gün Prezident İlham Əliyev Ulu Öndərin siyasətini ölkənin, xalqın mənafeyi naminə uğurla davam etdirir. Azərbaycan dövlətinin öz torpaqlarını işğaldan azad etməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunması Heydər Əliyev siyasətinin və Prezident İlham Əliyevin iradəsinin təntənəsidir”.

Çıxış edən “Heydər Əliyev siyasi məktəbi” layihəsinin iştirakçısı Nuranə Hüseynzadə bildirib: “Ulu Öndər Heydər Əliyevin 100-illiyinə həsr edilmiş Heydər Əliyev siyasi məktəbi layihəsinin iştirakçısıyam. Belə bir layihənin keçiriləcəyini öyrənəndə çox böyük həvəslə layihənin iştirakçısı olmaq istədim. Çünki bir şəhid bacısı kimi hesab edirəm ki, Heydər Əliyevin həyatını, siyasi irsini öyrənmək mənim mənəvi borcumdur. Layihə ərzində Ulu Öndərin gənclik illəri ilə bağlı Naxçıvandakı görüşlərimizdən başlayaraq, bu günə kimi Heydər Əliyevin həyatının hər dövrünü öyrəndik, Ulu Öndəri şəxsən tanımış, hətta onun rəhbərliyi altında işləmiş şəxslərlə görüşlərimiz keçirildi. Həm mənim, həm də digər layihə iştirakçıları üçün böyük şərəfdir ki, biz belə bir dahi insanın həyat yolunu ziyalıların sözlərindən öyrənə bilirik. Layihədən əvvəl də, əlbəttə ki, biz Ulu Öndər haqqında kitablar, məqalələr oxuyurduq, videofilmlər izləyirdik, valideynlərimiz bizə onun haqqında danışırdı. Lakin bu layihə sayəsində tarixi incəliklərlə öyrənmək şansımız oldu. Biz gənclər, şəhid ailələri, həmişə Heydər Əliyev irsinin ətrafında sıx birləşmişik, bundan sonra da bu prinsipial yolla getməyə davam edəcəyik”.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb. Sonda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbələrinin ifasında bədii hissə təqdim olunub.



# Qələbə triumfunun son akkordu - seçkilər

## *Xarici mətbuat Azərbaycan Prezidentinin növbədənkənar seçki qərarından yazır*

***Azərbaycan Prezidenti İlham Əliyevin növbədənkənar prezident seçkilərinin keçirilməsi barədə imzaladığı sərəncam təkcə ölkəmizdə deyil, eyni zamanda xarici mətbuatda da geniş işıqlandırılır. Müxtəlif versiyalar səsləndirilir, seçkilərin önə çəkilməsinə müxtəlif rənglər verməyə çalışanlar da var. Amma reallıq budur ki, gələn il təkcə Azərbaycanda deyil, dünyanın 70 ölkəsində seçkilər keçiriləcək. Ümumxalq tədbiri sırasında prezident seçkiləri ilə yanaşı, parlament və bələdiyyə seçkiləri də var. Hər ölkə üçün bu seçkilərin bir əhəmiyyəti var. Azərbaycan siyasi hadisələri qabaqlayaraq, vaxt itkisinə yol vermədən seçkiləri 1 il qabağa çəkdi.***

Əslində, vaxt məsələsinin seçkilərin nəticələrinə təsir edəcəyi barədə düşünmək belə absurddur. Çünki İlham Əliyevin indiki reytinqi çox yüksəkdir, həm də qarşıda elə bir nüans, faktor, həlli mümkün olmayan məsələ qalmayıb ki, nəticələrə təsir etsin. 96-98 faizlik reytinq nə qədər aşağı düşsə, yenə qalibiyyət üçün yetərli olacaq. Deməli məsələ bunda deyil. Məsələ Azərbaycanın başlatdığı, bizi yeni-yeni uğurlara götürəcək hadisələrin, meqalayihələrin, quruculuq işlərinin davamlılığını təmin etməkdir. Gələn ildən ölkəmizdə həyata keçirilən inkişaf proqramının növbəti və əsas mərhələsinə start veriləcək. Başladılan prosesə fasilə vermək, insanları seçkilərə cəlb etmək əldə olunanları da itirməyə bərabər olar.

Azərbaycanda növbədənkənar seçkilərin keçirilməsi barədə yazılar, müzakirələr Rusiya mətbuatında da dərc edilir. Maraqlı cəhətlərini nəzərə alıb həmin məqalələrdən birini dəyərli oxucularımıza təqdim etmək istərdik.

Azərbaycan Prezidenti İlham Əliyev növbədənkənar prezident seçkilərinin 2024-cü il fevralın 7-də keçirilməsi haqqında sərəncam imzalayıb. O, qəfil qərarını açıqlamayıb. Respublikanın hazırkı rəhbərinin seçki yarışından qalib çıxacağına heç kim şübhə etmir. Ekspertlər hesab edir ki, cənab Əliyev öz düşmənlərini - əsasən də xarici düşmənlərini daxili işlərə qarışmaq imkanından məhrum etmək üçün vaxtından əvvəl yenidən prezident seçilmək qərarına gəlib.

Dekabrın 7-də İlham Əliyev iki ay müddətində respublika başçısının növbədənkənar seçkilərinin keçirilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, ölkənin Mərkəzi Seçki Komissiyası səsvermənin 2024-cü il fevralın 7-də keçirilməsini təmin etməlidir. Bu, 2025-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkilərindən 15 ay tezdir. Azərbaycan lideri qərarını heç bir şəkildə izah etməyib. Onun imzaladığı sərəncamda yalnız Sənətin 1-ci hissəsinə istinadlar var, ölkə konstitusiyasının 101-ci maddəsi və Seçki Məcəlləsinin 179-cu maddəsi. Konstitusiyanın 101-ci maddəsində deyilir ki, "Azərbaycan Respublikasının Prezidenti növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini elan etmək hüququna malikdir". Seçki Məcəlləsinin 179-cu maddəsində deyilir: növbədənkənar seçkilər təyin edilərsə, səsvermə çərşənbə günü və müvafiq sərəncam imzalandıqdan sonra 60 gündən gec olmayaraq keçirilməlidir.

2003-cü ildən Azərbaycana rəhbərlik edən İlham Əliyev bütün prezident seçkilərində rəqibləri üzərində böyük fərqlə qalib gəlib. Üstəlik, onunla rəqibləri arasında uçurum seçkidən-seçkiyə daha da böyüyürdü. 2003-cü il oktyabrın 15-də keçirilən president seçkilərində İlham Əliyev 76,86% səs toplayıb. Onun rəqibləri isə üst-üstə 18 faiz səs toplayıb. Müxalifət daha sonra nəticələrlə razılaşmayaraq etiraz aksiyasına çıxdı. Təhlükəsizlik qüvvələri ilə toqquşmada 3 nəfər öldü. 2008-ci ildə Azərbaycan prezidenti seçiləndə cənab Əliyev 88,73%, ən yaxın rəqibi İqbal Ağazadə isə cəmi 2,86% səs toplayıb. İlham Əliyev 2013-cü ildə də, 2018-ci ildə də topladığı səslər 80%-dən aşağı düşmədi.

İlham Əliyevin dövründə eyni şəxsin iki dəfədən artıq dövlət başçısı seçilə bilməyəcəyi ilə bağlı müddəa konstitusiyadan çıxarılıb, prezidentin səlahiyyət müddəti 5 ildən 7 ilədək artırılıb. Yeri gəlmişkən, sonuncu - 2018-ci ildəki prezident seçkiləri də vaxtından əvvəl olub. Cənab Əliyev öz qərarı ilə onları oktyabrda deyil, apreldə keçirdi və rəqiblərini təəccübləndirdi. Bir sıra müxalifət partiyaları bu səbəbdən həmin kampaniyanı boykot etmək qərarına gəldilər.

Müxalifətin radikal qanadı İlham Əliyevin hazırkı qərarını da tənqid edir. Müxalifətdə olan Müsavat Partiyasının başqanı Arif Hacılının sözlərinə görə, növbədənkənar parlament və ya prezident seçkiləri yalnız ölkədə böhran olanda keçirilir. "Hazırda Azərbaycanda siyasi böhran yoxdur", – deyə siyasətçi Turan agentliyinə bildirib və söz verib ki, yaxın vaxtlarda partiya prezidentin qərarına münasibət bildirəcək. Başqa müxaliflər də təxminə buna yaxın fikirlər səsləndiriblər. Amma tutarlı arqument səsləndirməyiblər. Bu arada göz qabağındadır ki, bu gün İlham Əliyevin Azərbaycanda ciddi rəqibləri yoxdur.

Prezident İlham Əliyev 2020-ci ildə II Qarabağ müharibəsində qazandığı qələbəyə və bu il Qarabağdan separatçıları təslim olmağa məcbur etdiyinə görə xalqın əksəriyyətinin rəğbətini qazanıb. Hər iki hadisə Azərbaycan və Cənubi Qafqaz üçün tarixidir. Onlar prezident mandatını növbəti yeddi il müddətinə uzatmaqla hakimiyyəti birləşdirmək üçün yaxşı fon və məqam yaradırlar.

Beynəlxalq Araşdırmalar İnstitutunun nəzdində Avro-Atlantik Təhlükəsizlik Mərkəzinin aparıcı elmi işçisi Sergey Markedonov "Yeni il şənliyindən sonra biz "bütövləşmiş ölkədə" prezidentin yenidən seçilməsi üçün kampaniyanı başa çatdıracağıq", deyə Rusiya Xarici İşlər Nazirliyinin Telegram-kanalında Azərbaycan liderinin qərarını şərh edib. O qeyd edib ki, qarşıdan gələn seçkilər "birinci şəxsin dəstəyi və ona etimad haqqında plebisit" olacaq: "Axı, bu gün Azərbaycanın ən sərt müxalifətçiləri belə, Əliyevin dövlətin idarəçiliyində mükəmməl rolunu inkar etmirlər. Bu kontekstdə "burada və indi" ona qarşı çıxmaq demək olar ki, mümkün deyil. Prezident legitimliyinin təməlinə yeni simvollar toxunacaq. Əliyev belə bir anı əldən verməyə hazır deyil".

Qafqaz Siyasi Təhlil Mərkəzinin (Bakı) direktoru Əhməd Əlili "Kommersant"a müsahibəsində qarşıdan gələn seçkiləri ölkə tarixində ən proqnozlaşdırıla bilən növbədənkənar seçkilər adlandırıb. O qeyd edib ki, 2020-ci ilin noyabrında Üçtərəfli Bəyanat (Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında Qarabağda hərbi əməliyyatların dayandırılmasına dair saziş) imzalanan kimi "məlum oldu ki, Azərbaycanda prezident və parlament seçkiləri, eləcə də Rusiya sülhməramlılarının Qarabağda qalma müddətinin başa çatması üçün son tarix 2025-ci ilə qədərdir".

Xatırladaq ki, dekabrın 6-da İlham Əliyev Bakıda ABŞ dövlət katibinin köməkçisi Ceyms O'Brayen ilə görüşüb. Görüşdən sonra amerikalı diplomat X sosial şəbəkəsində ABŞ dövlət katibi Antoni Blinkenin Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərini yaxın vaxtlarda sülh danışıqları üçün gözlədiyini yazıb. İlham Əliyev dekabrın 6-da Ceyms O'Brayenlə görüşüb. Antoni Blinken onu qəbul etməyi şəxsən Azərbaycan dövlətinin başçısından xahiş edib. Ertəsi gün - dekabrın 7-də isə cənab Əliyev növbədənkənar seçkilər təyin edib.

Prezident İlham Əliyevin qərarı "dünyada seçki dövrlərinin sinxronlaşdırılması" ilə bağlı ola bilər. Hesablama belə ola bilər ki, 2025-ci ildə seçkilərin keçiriləcəyi ilə müqayisədə indi müdaxilə etmək istəyən daha az olacaq. Əsas güc mərkəzləri daxilində seçkilərlə məşğul olacaq. 2024-cü ildə dünyanın müxtəlif regionlarında mühüm seçkilər keçiriləcək. Rusiyada yazda, ABŞ-da isə payızda prezidentləri seçəcəklər. Avropa İttifaqı bu yay Ümumavropa parlamentini seçəcək. Deməli, seçki qərarı düzgündür.

***V.VƏLİYEV***



Mətanət Məmmədova

# Əvvəl keysəriyyə, ardınca küvəz...

***Keysəriyyə müasir dövr qadınlarının ən məşhur doğuş seçimidir, desəm, elə bilirəm, bir qədər yanılaram. Ona görə də günün dəbidir, deməyim daha çox yerinə düşər. Necə ki, budu, dizi, topuğu cırıq-cırıq şalvarlar, göbəyi bayırda qoyan köynəklər (gənclərin dili ilə desək, krop) dəbə düşdü, hamı geyindi ki, dəbdən geri qalaram, eləcə də keysəriyyə. İndi ən "elitni" qadınlar gərək keysəriyyə ilə doğsunlar, yoxsa, keysəriyyəlilərdən geri qalarlar.***

Məşhur olduğu qədər də dəhşətli olan keysəriyyə ölkəmizdə həm dövlət, həm də özəl xəstəxanalar tərəfindən həyata keçirilsə də, burada özəllərin xüsusi "payı və yeri" var. Bu doğuş növünün zərərlərindən, ən əsası isə sonrasından xəbərsiz gənc qadınlar dünyaya övladlarını yalnız bu yolla gətirməyi seçirlər. O qadınlar ki, onların maariflənməyə çox ehtiyacları var.

Əvvəllər doğuş zamanı hansısa bir çətinliyi olan qadına keysəriyyə məsləhət bilinirdisə və o, son anda bu əməliyyat vasitəsilə övladını dünyaya gətirirdisə, müasir dövrümüzdə əksər gənc qadınların yalnız bir seçimi var, o da keysəriyyədir.

Keysəriyyənin rahat yolla övladını dünyaya gətirmək metodu olduğunu düşünənlər əslində çox yanılırlar. Əgər normal doğuş bir neçə dəqiqə çəkirsə və ana doğuşdan bir saat sonra normal həyata qayıdırsa, keysəriyyə zamanı 1-2 saatlıq əməliyyat, daha sonra isə ananı 1-2 aylıq yataq rejimi və necə deyərlər, "özünü qoru, yeni ağır qaldırma, hər qidanı yemə, mayeni bu qədər qəbil et, uşağı yalnız oturaq vəziyyətdə qucağına al" mərhələsi gözləyir.

Yaxşı, bunların hamısını qoyaq bir kənara, keysəriyyə ilə doğuşdan sonrakı proseslərdən danışaq. Deməli, indi həm də özəl xəstəxanalarda uşağı dünyaya gətirmək dəb halını alıb. Nəyə görə? Çünki bizim gənclər, əlbəttə əksər gənclər həyatını foto və video üzərində qurub və paylaşmaq hissi onlar üçün digər hisslərin hər birindən üstündür. Ona görə də görünüş etibarilə mənzərəli, "baqatı" yerlər axtarırlar. Və onlar özlərini təbii ki, özəl xəstəxanalarda tapırlar. Çox baha qiymətə-2500-3000 manata başa gələn keysəriyyələr bu gənc qadınlara nə divan tutur, bunu onlar hələ gec anlayacaqlar. Bu seçimlə əslində dünyaya sağlam övlad gətirdiklərini də zənn etməkdə çox yanılırlar...

Keçək küvəz məsələsinə. Deməli, keysəriyyə sonrası küvəz mərhələsi başlanır. Küvəz bu mərhələdən heç bir uşağı yayındırmamağa çalışan həkimlər üzərinə çalışdıqları xəstəxananın qoyduğu öhdəlikdir. Onlar küvəzə neçə uşaq cəlb edə bilirlər, bu yolla xəstəxananın büdcəsinə nə qədər vəsait daxil edirlər, bu barədə hesabat verirlər. Beləliklə, doğulan uşaq müayinə olunur və valideynlərə ciddi xəbərdarlıq edilir ki, bəs uşağınızın ciyərlərində, beynində problem var, hökmən küvəzə qoyulmalıdır. Valideyn də titrətməyə düşür və uşağın küvəzə qoyulmasına dərhal razılıq verir. Küvəzin də evi yıxılsın, qiymətini eşidəndə adamın huşu başından çıxır. Bəzi özəllərdə günü 50-80, bəzilərində 100-150( dərman, onu al, bunu alla, bu da ucuz başa gəlmir, olur elə 200-300), hətta 200-300 manat olan bu prosedur bir yana, hələ 1000-2000 manat depozit də qoymalısan. Bir sözlə, abrını tökürlər.

Beləliklə, xəstəxanadan yaxa qurtarmaq gəlir 5000 manata yaxınlaşır, çox halda isə bunu keçir. Bu da tibb ocaqlarının bizə bəxşişi... Hələ bundan sonra keysəriyyə qurbanı anaların südü gəlmir, başlayırsan aptek və marketlərdə səni həsrətlə gözləyən süni qidalara. Bu qidaları da təbii ki, həmin xəstəxanaların həkimləri yazır. Kimə hansı firma münasibdir, səni də yönləndirir oraya. Onlar faizlərini alırlar, biz isə banklara faizə girib uşaq böyüdürük. Odur ki, ay gənc qadınlar, bir böyük məsləhəti dinləyin, bir söz eşidin. Təbii yolla doğuşa üstünlük verin. Canınız da, uşağınız da sağ olsun, pulunuz cibinizdə qalsın, abrınız da özünüzdə...

# Ermənistan üçün "Ayakve" adlı QORXULU NAĞILLAR

***Qarabağın Azərbaycan ərazisi kimi tanınmasının kriminallaşdırılması ilə bağlı hüquqi anlam daşıdığı iddia edilən, əslində isə, faktiki olaraq, qonşu dövlətə, yəni, ölkəmizə qarşı ərazi iddiası olaraq ortaya atılan sərsəm "Ayakve" təşəbbüsü vətəndaş qarşıdurması fonunda Ermənistan dövlətçiliyi üçün ciddi sarsıntı yaradır. Ermənistanda yaşayan ermənilərlə Qarabağdan köç edib gedən ermənilər arasında düşmənçilik salan "Ayakve" tərəfdarları öz ölkələrinin təməli altına "mina" basdırmaqda davam edirlər və bu "partlayış" İrəvan üçün çox ciddi bir fəlakət deməkdir. "Ayakve" cəfəngiyyat, sərsəm təşəbbüs, hətta axmaqlıq kimi ermənilərə görünsə belə, nə dərəcədə böyük fəlakət olduğunu dərk edənlər üçün bu, qorxulu nağıllara çevrilib və onların yuxularını da ərşə çəkib.***

Müharibə bitdikdən sonra yumruqlarını göyə qaldırıb haray-həşir salmamaqda erməni əhalini ittiham edənlər yanılırlar. Çünki bu vaxta qədər yumruqları göydə boşboşuna yellənən hayların hay-küyü mənasız olsa belə yetərincə olub və ağılları çiyinlərinin üstündə gəzdirdikləri başlarında yox, arxalarında olanlar işğalçı ölkədə kiayət qədərdir. Əks halda, bu gün öz ölkələrini sarsıdacaq sərsəm təşəbbüslərə rəvac verməz və axmaqlıqdan əl çəkərdilər. Ən azından 44 günlük müharibənin və ümumiyyətlə, reallıqların məntiqi nəticəsi olaraq qarşılaşdıqları rüsvayçı məğlubiyyətlərdən sonra atılıb-düşməyin mənasız, faydasız olduğunu dərk etsəydilər, xaricdən maddi dəstək alaraq, yumruqlarını havada yelləyib sadə insanların hissləri ilə oynamağa, onları çaşdırmağa, son nəticədə də Ermənistan Respublikasının müstəqilliyinin və dövlətçiliyinin təməlinə güclü zərbə vurmağa çalışmazdılar. Amma indi həmin zərbəni vurmaq üçün "Ayakve" tərəfdarları elə bil növbəyə dürüblar və əllərindən gələndən də artığına nail olmaq istəyirlər.

Ola bilsin ki, 2020-ci ilin 8 noyabr tarixinə qədər, yaxud da, bu ilin 19 sentyabr tarixinə qədər həmin o sərsəm təşəbbüsün hansısa bir formada mövcudluğu yalnız ermənilərin özləri üçün də olsa, başadüşülən ola bilərdi. Amma indi bu təşəbbüs ümumiyyətlə, başadüşülən deyil və mənasızlığı da göz önündədir, çünki köç etdikləri torpaqlarla bağlı nail olacaqları iddia edilən hər nə isə, şəksiz-şübhəsiz mümkünsüzdür. İndi ermənilər üçün nə qədər kədərli görünsə də, reallıq bundan ibarətdir ki, onlar üçün hər şey artıq arxada qalıb və heç bir əsası olmayan istəkləri, arzuları artıq puç olub gedib. Ələlxüsus da, qondarma rejimin məhz 2024-cü il 1 yanvar tarixindən mövcudluğuna son qoyacağı barədə elan etməsindən sonra son ümid qığılcımına da yer qalmır. Bəli, minlərlə erməninin müharibələr zamanı həyatını itirməsi erməni cəmiyyəti üçün ağrılıdır və bu, Ermənistanın ümumi ağrısıdır, hansıki bunu başa düşmək çətin deyil. Onu da başa düşmək çətin deyil ki, erməni cəmiyyəti bu ağrı ilə onilliklər, hətta yüzilliklər, əsrlər boyu yaşamalı olacaq. Amma məsələ burasındadır ki, əvvəla, bu ağrıları yaşamaqda özləri günahkardırlar. Digər tərəfdən də indi hansısa sərsəm "Ayakve" təşəbbüsü onların nə yaralarına məlhəm deyil, nə də bununla, həmin sərsəm təşəbbüslə istədiklərinə nail ola bilməzlər. Əksinə, bununla bütövlükdə Ermənistan üçün fəlakətlər yarada bilərlər və dövlətçiliklərinin də təməlini sarsıda, siyasi varlıqlarına da son qoya bilərlər. Yəni, həmin sərsəm təşəbbüs hər kəsə bəllidir. O da bəllidir ki, beynəlxalq hüquq da Azərbaycanın tərəfindədir və ölkəmiz haqlı tərəfdir və Nikol Paşinyanın da məhz Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan etməsi, etiraf etməsi heç də təsadüfi deyildi. Bütün bunların fonunda indi sərsəm "Ayakve" təşəbbüsü olduqca mənasız nağıl və cəfəngiyyat kimi görünür, amma bununla belə, ermənilərin özləri tərəfindən də Ermənistan dövlətinin mövcudluğuna təhlükə olaraq qəbul edilir və yuxularını da qarışdırmaları bu baxımdan anlaşılandır. Çünki belə qorxulu nağılların hər dəfə Ermənistanı bir fəlakətdən digərinə sürüklədiyi barədə haylar kifayət qədər böyük təcrübəyə sahibdirlər.

Həmin o sərsəm "Ayakve" təşəbbüsü nə etmək niyyətindədir? Birbaşa erməni dövlətçiliyinə hücum etməkdən başqa nəyə hesablanıb bu təşəbbüs?



nağıl kimi bir cəfəngiyyat olsa da, işğalçı ölkə üçün həddindən artıq qorxuludur.

Ermənistanın istər 44 günlük müharibə zamanı, istərsə də 23 saatdan bir qədər artıq davan edən anti-terror tədbirləri zamanı uduzması, məğlubiyyət acısını yaşaması məntiqi idi və əvvəlcədən də gözləniləniİirdi. Uduzan, məğlub olan tərəfin Ermənistan olacağı hələ öncədən bəlli idi. O da bəlli idi ki, Azərbaycanı dayandırmaq, haqq işindən çəkindirmək mümkün sayıla bilməzdi. Müharibəni də dayandırmadan, erməni baş nazir Nikol Paşinyanın kapitulyasiya sənədinə imza atması ilə təslim oluqlarını da elan etmədən, davam etmək Ermənistan üçün daha böyük itgilərlə məğlubiyyət olardı və qısa müddətdə ermənilərə daha bir neçə min gəncin həyatı bahasına başa gələrdi. Ən sıravi erməni belə yaxşı bilir ki, nəticə onsuz da erməni cəmiyyəti üçün üzücü, ağrılı olmalı idi. Çünki Azərbaycanın qarşı tərəfdən, işğalçı ölkə olan Ermənistandan dəfələrlə üstün, istənilən sahədə, ələlxüsus da iqtisadi və hərbi baxımdan dəfələrlə güclü olduğu Ermənistanda olan ermənilərlə Qarabağdan köç edən ermənilər arasında hazırda qarşıdurma yaratmaqdan başqa nəyə nail ola bilər? Düşmənçilik toxumu səpməklə, vətəndaş müharibəsinə nail olmaqmı fikrindədirlər həmin o "Ayakve" tərəfdarları? "Əgər ermənisənsə, qanunvericiliyə dəyişiklik etmək və Ermənistan adından qondarma "Artsax" adlı qurumu tanıyan hər hansı hərəkəti cinayət məsuliyyətinə cəlb etmək üçün Milli Məclisə müraciət etmək üçün petisiya imzala", deyən "Ayakve" üzvləri manipulyasiyaya əl atırlar. Ermənistan üçün bəla burasındadır ki, onlar bu manipulyasiyaları, sərsəm yanaşmaları ilə 58 mindən çox imza da toplaya biliblər. Hətta iddia da edirlər ki, 58 min imza edənlərdən əksəriyyəti Qarabağdan köç edənlərdir. Yəni, dərk etmirlərmi ki, bu, ictimai rəyin manipulyasiyası, Ermənistan üçün təhlükə və daxili siyasi mübarizənin tərkib hissəsidir? Hər halda, hansı xarici qüvvələrin dəstəyi sayəsində hansı fraksiyaların həmin o sərsəm "Ayakve" təşəbbüsü ilə hazırlanmış qanun layihəsini Milli Məclisə təqdim etməyə çalışdırlarının da erməni cəmiyyəti fərqindədir. Yaxud da fərqində olmalıdırlar ki, yenə də "külək hansı tərəfdən əsir" və bu, hansı fəlakətlər vəd edir.

Maraqlıdır, həmin o sərsəm təşəbbüs olan "Ayakve" tərəfdarları, yaxud da imza atan 58 min nəfər görəsən, 44 günlük müharibə zamanı harada idilər? Axı onların heç birinin, ələlxüsus da "Ayakve" tərəfdarlarının döyüş meydanında olmadığı barədə Ermənistana məxsus mətbuat səhifələrində kifayər qədər məlumatlar var. Hətta imza atan 58 min nəfərin də zorla hərbi komissarlığa aparılmasına baxmayaraq, müharibəyə göndərilməsinin mümkün olmadığı barədə də informasiyalar Ermənistan KİV-lərində yer alır. İndi bir sual yaranır ki, görəsən, qondarma "Artsax" dedikləri əldəqayırma rejim üçün onlar nə edibər ki, qalanlarına qarşı da tələblə çıxış edirlər? Yəni, hansı işin, hansı əməlin, hansı dəstəyin sahibi olublar ki, indi özlərini əsl vətənpərvər kimi sırımağa çalışırlar və bununla erməni cəmiyyətini də Ermənistanı da təhlükələrə sürükləyirlər? İndi erməni cəmiyyətinin qorxulu yuxular görməsi heç də əbəs yerə, yaxud da təsadüfi deyil. Çünki xaricdən maliyyə yardımları, maddi dəstək alaraq, aranı qızışdıranlardan bütövlükdə erməni cəmiyyəti bezib. Hansısa xarici qüvvələrin təhriki ilə oynanilan oyunların törətdikləri fəlakətlərdən ermənilər boğaza yığılıblar. Qorxularını da başa düşmək çətin deyil, çünki yaxşı bilirlər ki, həmin oyunların guya Nikol Paşinyan üçün oynanıldığı görüntüsü ortada olsa da, bunun acısını, ağrısını həmişə olduğu kimi, yenə də erməni cəmiyyəti, erməni xalqı çəkməli olacaq.

Sərsəm "Ayakve" təşəbbüsü ilə bağlı təzadlı məqamlar yetərincədir və həmin sərsəmliyi dəstəkləməyin özünün də nə demək olduğu bəllidir. Qərbin demokratik dövlət kimi qələmə vermək, daha doğrusu, sırımaq istədiyi ölkənin ali qanunverici orqanında Qarabağın Azərbaycan ərazisi kimi tanınmasının kriminallaşdırılması ilə bağlı hüquqi anlam daşıdığı iddia edilən təşəbbüs, birbaşa olaraq, qonşu dövlətə, yəni, ölkəmizə qarşı ərazi iddiasıdır. İndi bunun nə demək olduğunu ermənilər özləri izah edə bilərlərmi? Axı baş nazirləri Paşinyan Qərbin vasitəçilik platformalarında Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etdiyi halda, onun təmsil etdiyi ölkənin parlamentində belə bir sərsəm məsələnin müzakirəsi barədə spekulyasiyalar belə izah oluna bilən deyil. Bir halda ki, Ermənistan dövləti Cənubi Qafqazda sülhdən danışır, ölkəyə gəlib-gedən xaricilərin, ələlxüsus da, özünə yeni "ağa" seçdiyi Qərb təmsilçilərinin qarşısında əmin-amanlıq və dinclik şəraitində, mehriban qonşuluq əsasında birgə yaşamaq istəyindən dəm vurur, deməli, sərsəm "Ayakve" təşəbbüsü adı ilə ortaya atılan cəfəngiyyatlar həmin ölkənin ali qanunverici orqanının qapıpəncərəsindən, hətta ən kiçik bacasından da içəri yol tapmamalıdır. Çünki, həmin o sərsəm təşəbbüs Azərbaycanın Qarabağ üzərindəki suveren haqlarını heçə saymağa, perspektivdə də bölgənin Ermənistana məxsusluğunu iddia etməyə əsas vermək məqsədi ilə gündəmə gətirilməkdədir və istənilən halda bütün bunlar qəbuledilməzdir. Nəinki qəbuledilməzdir, eyni zamanda, Ermənistan üçün yeni "baş ağrısı", yeni fəlakətlər deməkdir. Çünki qonşu dövlətlərlə sözdə yox, məhz əməldə normal qonşuluq münasibətləri yaratmadıqca, əksinə, nifaq toxumları səpildikcə, Ermənistan üçün çox dərin quyu qazılır. Bu quyu da məhz elə erməni cəmiyyəti üçün sərsəm "Ayakve" təşəbbüsü adlı qorxulu nağılların qorxunc sonluğu ola bilər.

***İnam Hacıyev***



### Fəxri Xiyabana ziyarət

Xalqım bir küçəyə axışıb gəlir,
Heyranam rəhbərin məhəbbətinə,
Min-min vuran ürək yığılıb gedir,
Susmuş bir üreyin ziyarətinə.
***
Sükut hökmrandır elə bil ki, burda,
Rəhbər sakit yatır çiçəkli bağda,
Gərəkdir Heydəri aparan o il,
Xəcalətli olsun illər içində.
***
Yenə o Dahini yaşadır zaman,
O, xalqa dayaqdır torpaq içində,
Sonsuz tələtümdən yorulmuş İnsan,
Dincəlir tapdığı sükut içində.

***Mürsəlova Ofelya,***
***APDU-nun sabiq baş müəllimi***

# Sergey Marqulis: “Ermənistan sülh müqaviləsini gecikdirməyə çalışır”



## Cənubi Qafqazın beynəlxalq siyasətdə əhəmiyyəti çox mühüm nəqliyyat və iqtisadi potensialına görə açıq şəkildə artır”

***Rusiyalı ekspert, Rusiya Federasiyası Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət İdarəçilik Akademiyasının Sosial Elmlər İnstitutunun Beynəlxalq siyasət və xarici regionşünaslıq kafedrasının baş müəllimi Sergey Marqulis “Caliber” analitik mərkəzinə müsahibəsində regionda gedən proseslər və yaranmış vəziyyətlə bağlı maraqlı məqamlara toxunub. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.***

**- Ötən həftə Rusiyanın xarici işlər naziri Sergey Lavrov “Üç üstəgəl üç” regional platformasının həyata keçirilməsinin vacibliyini açıqladı. Bu layihənin perspektivlərini necə qiymətləndirirsiniz?**



- Azərbaycanın irəli sürdüyü və Türkiyənin də dəstəklədiyi “3+3” təşəbbüsü yeni deyil və fikrimcə, ümumilikdə bütün iştirakçı ölkələr üçün, xüsusən də iqtisadi baxımdan perspektivli ola bilər. Şübhəsiz ki, Lavrovun bununla bağlı bəyanatları təsadüfi deyil, çünki Rusiya Federasiyası üçün bu təşəbbüsün regiona birbaşa aidiyyəti olmayan hər hansı xarici aktorların, ilk növbədə ABŞ-ın iştirakını istisna etməsi vacibdir. Lakin bu platforma Bakı ilə İrəvan arasında münasibətlərin tənzimlənməsi baxımından kifayət qədər effektiv deyil, çünki bu, əsasən Azərbaycan və Ermənistan rəhbərliyinin siyasi iradəsindən asılı olacaq.

**- Rusiya ekspert icmasında üstünlük təşkil edən fikir ondan ibarətdir ki, Ukraynada müharibə başa çatdıqdan sonra Rusiya Federasiyası Cənubi Qafqazdakı, xüsusən də Ermənistandakı vəziyyətlə daha yaxından məşğul olacaq. Rusiya Federasiyası konkret hansı addımları ata bilər?**

- Bu mövzu ilə bağlı istənilən bəyanatı populizm hesab edirəm. Birincisi, ona görə ki, Ukrayna istiqamətində xüsusi əməliyyatın başa çatması ilə bağlı, hələlik, heç bir konkret məlumat yoxdur.

İkincisi, Rusiya 1990-cı illərdən, yəni demək olar ki, Qarabağ münaqişəsi başladığı andan Cənubi Qafqazda kifayət qədər aktiv siyasət aparmağa çalışıb. Ona görə də Rusiya Federasiyasının Qafqazda hansısa qeyri-müəyyən perspektivdə hansısa güclü aktivləşməsindən danışmaq ciddi deyil.

**- Ermənistanın KTMT-dən çıxma ehtimalı nə dərəcədə yüksəkdir?**

- Ermənistanın KTMT-dən çıxma ehtimalı mövcuddur və kifayət qədər yüksəkdir. Ermənistan rəhbərliyinin bunun əksini iddia etməsinə baxmayaraq, onların son addımları ən azı bu ölkənin bu təşkilata marağını itirdiyini göstərir. Lakin bunu Ermənistan rəhbərliyinin əməli fəaliyyəti də göstərir. Eyni zamanda, Ermənistan KTMT-dəki fəaliyyəti çox məhdud olsa da, düşünmürəm ki, yaxın gələcəkdə hərbi blokdan çıxmaq qərarına gələcək.

**- Son hadisələr fonunda yaxın gələcəkdə Bakı ilə İrəvan arasında sülh sazişinin bağlanması mümkündürmü?**

- Danışıqlar prosesi gedir, amma mən qısa və ya ortamüddətli perspektivdə sülh sazişinin bağlanmasından danışmazdım. Bu, bir sıra həll olunmamış məsələlərlə müşayiət olunur, məsələn, Zəngəzur dəhlizi ilə bağlı fikir ayrılıqları, sərhədlərin delimitasiyası məsələləri və s. Digər tərəfdən, Ermənistan cəmiyyətində sülh müqaviləsi Ermənistanın növbəti məğlubiyyəti kimi qəbul oluna bilər. Ona görə də çox güman ki, Nikol Paşinyan Azərbaycanla sülhün bağlanması ehtimalını gecikdirməkdə davam edəcək.

**- Amerika hərbi bazalarının Ermənistanda yerləşdirilməsi və Rusiya hərbi bazalarının Gümrüdən çıxarılması ehtimalını etiraf edirsinizmi?**

-Rusiya hərbi bazasının çıxarılması mövzusu hətta Rusiya media məkanında kifayət qədər fəal müzakirə olunur, baxmayaraq ki, mənim bildiyimə görə, bununla bağlı nə Ermənistan, nə də Rusiya tərəfdən bircə dəfə də olsun rəsmi açıqlama verilməyib. Ona görə də mən hələlik belə bir ssenari üçün heç bir əsas görmürəm.

Amma Qarabağdakı rus sülhməramlılarına gəlincə, mən hesab edirəm ki, onların orada olması üçün ciddi əsaslar olmadığı üçün çox güman ki, onların çıxarılması 2025-ci ildə baş tutacaq. Qarabağ problemi hərbi yolla həll olunub və indi orada rus sülhməramlılarının olmasına ehtiyac getdikcə azalır. Ona görə də təbii ki, regional təhlükəsizlik baxımından hansısa köklü dəyişikliklər olmasa, onların regionu tərk edəcəklərini düşünürəm.

**- Müşahidələrinizə görə, dünya siyasətində Cənubi Qafqaz hansı rolu oynayır?**

- Cənubi Qafqazın beynəlxalq siyasətdə əhəmiyyəti çox mühüm nəqliyyat və iqtisadi potensialına görə açıq şəkildə artır. Aparıcı fövqəldövlətlərin, xüsusən də ABŞ-ın regiona diqqəti artır. Bu isə artıq bu regionun həm beynəlxalq münasibətlər sistemində, həm də qlobal iqtisadiyyatda əhəmiyyətinin göstəricisidir.

*Tərcümə - Elçin Bayramlı*





Elçin Bayramlı

# Qəzetlər nəyə lazımdır?

**İnternetin inkişafı media sistemini, formatını, jurnalistlərin iş qaydalarını, hətta deyərdim ki, peşə prinsiplərini tamam dəyişdi. Elektron media sürətlə print medianı sıradan çıxardı. Klassik media yalnız Almaniya, Fransa, Rusiya, Britaniya kimi ənənəvi oxuma vərdişlərinə yiyələnmiş ölkələrdə hələ də müqavimət göstərə bilir.**

Azərbaycanda isə yazılı mətbuat yalnız dövlət dəstəyi ilə ayaqda qalır. Dövlət əlini çəksə, bir aya ortada bir qəzet, jurnal qalmaz. Buna görə dövlətə ən azı təşəkkür düşür. Çünki çap mətbuatının yaşaması vacibdir. Qəzet-jurnallar sadəcə mətbuat deyil, bu, həm də yazılı, sənədli tarixdir. İstənilən vaxt istənilən qəzetin istənilən nömrəsini arxivdən götürüb oradan bəhrələnmək olar. Lakin internet saytlar haqda bunu demək olmaz. Onların bazaları teztez itir, silinir məhv olub gedir. Şəxsən mənim internetdə indiyədək minlərlə yazım olduğu halda, axtarış verəndə 100-nü tapmaq olmur. Amma bütün yazılarım qəzet səhifələrində arxivimdə qalır.

Bizdə çap mediasının reklam bazarı, abunədən və satışdan gəlirləri çox cüzidir. Ona görə də, indiki şəraitdə dövlətin çap mətbuatına maliyyə dəstəyi verməsi vacibdir. Çünki onların öz gücü ilə fəaliyyət göstərməsi mümkün deyil. Xüsusən də, bizim kimi qəzet-jurnal oxumağı bir zərərli vərdiş kimi tərgidən cəmiyyətdə. Belə bir rəqabətli mühitdə çap mediasının fəaliyyəti üçün böyük maddi texniki baza və maliyyə imkanları olmalıdır. Üstəlik, peşəkar kadrlar lazımdır, onlar da aşağı qonorara işləmirlər. Reklam bazarı yoxdur deyə qəzetlər mütəxəssislərə, peşəkar jurnalistlərə səviyyəli yazılar yazdıra bilmirlər, ucuz işçi qüvvəsi kimi daha çox gənc praktikantları işlətməyə üstünlük verirlər. Üstəlik, çap mətbuatı yeganə media növüdür ki, ona pul ödəmək lazımdır. Razılaşın ki, hər gün 50-60 qəpik verib qəzet almağa çoxunun imkanı yoxdur, olan da almır ki, saytlarda pulsuz oxuyuram. Bir sözlə, klassik mətbuatın müsbət və mənfi tərəfləri var. Lakin tərəziyə qoysaq, müsbət tərəflər daha ağır gələr.

Elektron mediaya gəldikdə burada hər cür imkanlar var. Sadəcə, bu sahədə anarxik vəziyyət olduğundan vəziyyət birmənalı deyil. Bu medianın müsbət tərəflər aydındır- hər bir faktı, hadisəni əhaliyə daha tez çatdırmaq olur, operativlik yüksəkdir, canlı yayım vermək, limitsiz foto və video əlavə etmək, bunu milyonlarla ünvana çatdırmaq, onlayn göndərmək, interaktivlik təmin etmək imkanı var.

Mənfi tərəflər odur ki, hər cür provakativ reklam və təbliğat xarakterli məlumatlar, saxta və dezinformasiya materiallarını yaymaq asan olur. Hətta ümummilli və dövlət əhəmiyyətli proseslərdə təxribatlar da törətmək mümkündür. Dəfələrlə bunun şahidi olmuşuq.

Bir sözlə, internet media müsbət tərəflərindən daha çox mənfi tərəfləri ilə ortadadır. Əksəri diletantlar, reketlər, dələduzlardan ibarət olmaqla minlərlə sayt açılıb xəbər yayır. Çoxu 1-2 nəfərdən ibarətdir- o da sayt adminləri. Peşəkarlıq çox aşağı səviyyədə, maddi texniki baza zəif, əhatə dairəsi və müxbir postları şəbəkəsi yox, dünya informasiya məkanına təsir gücü sıfır vəziyyətdə, heç bir etika, ədəb, mənəvi norma yox. Əlbəttə, istisnalar var.

Bir neçə iri informasiya agentliyi və xəbər portalı var ki, onlarda da vəziyyət qənaətbəxş deyil. Yaydıqlarının 90 faizi hazır rəsmi məlumatlar, əməkdaşların telefonla kimisə danışdırdığı, tədbirlərdən göndərdiyi “o dedi, bu dedi” qəbilindən “eksklüziv” xəbərlərdır. Yaradıcılıq, xəbər axtarışı, problem tapıb ortaya qoymaq, analiz etmək və araşdırmaq payı çox azdır.

Problem fundamental və kompleksdir. Bu, birbaşa dövlət, cəmiyyət və media üçbücağındakı qarşılıqlı vəziyyətlə analoji müstəvidə inkişaf edən bir sistemdir. Dövlət ciddi mətbuata rahat fəaliyyət üçün hər cür imkan yaratmalı, cəmiyyət isə şou mövzuların başını buraxıb ciddi siyasi, iqtisadi, mədəni, elmi mövzularda materialları izləməlidir. İş adamları, şirkətlər çap mediasına reklam verməlidir. Televiziyalar qəzetləri saytları təşviq etməlidir. Medianın İnfkişafı Agentliyi (MEDİA) öz vəzifəsini yerinə yetirir, klassik mətbuata hər cür dəstək verir, peşəkar jurnalistlərin yetişdirilməsində xidmətlərini göstərir. Qalır cəmiyyətin və jurnalistlərin də mətbuatımızın yaşaması üçün çalışması. Əgər hər kəs öz rolunu düzgün aparsa, klassik mediamız yaşayacaq. Son nəticədə həm dövlətimiz, həm cəmiyyətimiz qazanacaq.

***Azərbaycanda sosial təminat sistemi, səmərəli əmək bazarının inkişafına təkan verməklə əhalinin iqtisadi problemlərinin azaldılmasına yönəlmiş proqramlardan ibarətdir. Sosial sığorta sisteminə pensiyalar, işsizlik müavinətləri, tibbi sığorta və digər sosial müavinətlər daxildir.***




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Sosial siyasət: ümumi rifah naminə

## Orta pensiya artır

2023-cü il yanvarın 1-dən minimum əmək pensiyası 280 manat müəyyən edilib. Minimum aylıq əmək haqqı 2023-cü il yanvarın 1-dən 345 manatdır. Azərbaycanda pensiyalar yaşa, əlilliyə, ailə başçısını itirməyə görə təyin edilir. Yaşa görə pensiya, maliyyələşdirilən və sığortalanan hissədən ibarətdir. Yaşlılıq pensiyasının təyin edilməsi şərtləri də cinsə görə dəyişir, kişilər 65 yaşına çatdıqda, qadınlar isə 62,5 yaşa çatdıqda yaşa görə pensiyaya çıxa bilirlər.

Eyni zamanda, fərdi hesabda əmək stajından asılı olmayaraq, yaşayış üçün kifayət qədər minimum əmək pensiyasından az olmayan məbləğ olduqda yaşa görə pensiya təyin edilir. Yaşayış üçün məbləğ kifayət deyilsə, pensiyanın sığorta hissəsinə töhfənin minimum müddəti 25 il olmalıdır. Həmçinin, pensiyaya çıxdıqdan sonra işləməyə davam etdikdə, hər 6 ildən bir pensiyanın məbləğinə sosial sığorta haqlarının 72-yə bölünməsinin nəticəsinə bərabər məbləğ əlavə edilir.

Azərbaycan Respublikasının ərazisində daimi yaşayan əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan vətəndaşları ilə bərabər əsasda pensiya almaq hüququ var. Azərbaycan vətəndaşları xaricdə işləyərsə, Azərbaycanla müvafiq dövlətlər arasında müqavilə olduqda, pensiya təyin edilərkən bu iş stajı nəzərə alınır. Bu halda pensiya Azərbaycandan təyin edilir və ödənilir. Başqa dövlətlərin vətəndaşları Azərbaycan ərazisində əmək fəaliyyətini həyata keçirdikdə, ikitərəfli müqavilələrdə bu iş stajı vətəndaşı olduqları dövlətdə pensiya təyin edilərkən onlara hesablanır.

2007-ci ildə respublika əhalisinin 15%-ni (1 milyon 248 min nəfər) pensiyaçılar təşkil edirdi. 2012-ci ildə 1 milyon 277 596 nəfər əmək pensiyası alıb. 2012-ci ilə olan məlumata görə, pensiyaçıların 39 faizi kişi, 61 faizi qadın olub. Onların əksəriyyəti yaşa görə, qalanları isə əlilliyə görə və ailə başçısını itirməyə görə pensiya alırdılar. 2013-cü ildə respublika üzrə orta pensiya 163 manat olub. 2014-cü ilə qədər bu məbləğ 20 faiz (183 manat) artırılıb. 2017-ci ilin yayına ölkədə pensiya alan 1 milyon 325 min nəfər olub ki, onlardan 329 min 275 nəfəri ahıllardır. 2006-2017-ci illər ərzində respublika üzrə orta pensiya 6,4 dəfə artıb. Pensiya xərcləri 5,9 dəfə artıb. 2023-cü ilin iyun ayına yaşa görə pensiyanın orta məbləği 465 manatdır.



## ÜYS: kimlər alır?

Ünvanlı dövlət sosial yardımı — aztəminatlı ailələrə dövlət tərəfindən göstərilən pul yardımıdır. Ünvanlı sosial yardım, orta aylıq gəliri ailənin hər bir üzvü üçün tələb olunan vəsaitdən aşağı olan aztəminatlı ailələrə ödənilir. 2023-cü il üçün ehtiyac meyarı 246 manat müəyyən edilib. 2024-cü il üçün ehtiyac meyarının həddi 270 manat olacaq. 2023-cü il üçün ünvanlı sosial yardımın məbləği bir ailəyə 535 manat müəyyən edilib.

Bu yardım, ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə və ya 8 yaşına çatmamış uşağa qulluq etməsi, 23 yaşınadək əyani təhsil alması, müvafiq icra hakimiyyəti orqanında dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi ilə əlaqədar işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması hallarında təyin edilən dövlət dəstəyidir.

Sosial yardım onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən 1 (bir) il müddətinə təyin olunur. Növbəti il üçün təkrar müraciət edilməli, ailə yenidən baxışdan keçirildikdən sonra yardım təyin edilməlidir. Sosial yardım ayda bir dəfə aztəminatlı ailənin təmsilçisinin adına olan kart hesabına mərkəzləşdirilmiş şəkildə tam məbləğdə və nağdsız qaydada ödənilir.



## Əlillərin sosial müdafiəsi

Əlilliyin və sağlamlıq vəziyyətinin müəyyən edilməsi meyarları haqqında Əsasnamə Azərbaycan Nazirlər Kabinetinin 30 dekabr 2015-ci il tarixli qərarı ilə təsdiq edilib. Azərbaycan Prezidenti 2013-cü il yanvarın 9-da "Sağlamlıq imkanları məhdud uşaqlara və təhlükəli sosial vəziyyətdə olan yetkinlik yaşına çatmamış şəxslərə sosial xidmət göstərilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam da imzalayıb. 2013-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 17 prioritet layihə təsdiq edilib. 2013-cü ildə layihələrin icrası zamanı 18 yaşadək 800 uşağa sosial, psixoloji, hüquqi və reinteqrasiya xidmətləri göstərilib.



Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 sentyabr tarixli "Əlillik sahəsində məhdudiyyətlərin və imkanların qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında" Sərəncamı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş informasiya sistemində Tibbi sosial ekspertiza və reabilitasiya alt sistemi (TSERAS) yaradılıb.

Azərbaycanın Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi - yaradıcılıq və inklüziv inkişaf mərkəzi fəaliyyət göstərir. Mərkəz sağlamlıq imkanları məhdud şəxslərin, onların övladlarının, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, aztəminatlı ailələrdən olan istedadlı insanların bacarıq və yaradıcılıq potensialının inkişaf etdirilməsi məqsədi ilə 5 oktyabr 2021-ci il tarixində yaradılıb.

Qarabağ müharibəsi iştirakçılarının sosial müdafiəsi də daim dövlətin nəzarəti altındadır. 8 dekabr 2020-ci il tarixində müharibə iştirakçılarına və onların ailələrinə dəstək məqsədilə "YAŞAT" dövlət fondu yaradılıb. Fond yaşayış şəraitini yaxşılaşdırır, təhsilə, peşə hazırlığına, yaradıcı potensialın inkişafına köməklik göstərir, müalicə xərclərinə kömək edir. 2023-cü ilin dekabr ayına fonddan 79 milyon 484 min manat vəsait xərclənib. 14785 nəfərə yardım göstərilib. Şəhid ailələrinə, itkin düşmüş şəxslərə və əlillərə yardım göstərilir.

## İcbari tibbi sığortanın sosial müdafiədə rolu

İcbari tibbi sığorta əhalinin sosial müdafiəsi forması olaraq, sığorta hadisəsi zamanı əhaliyə icbari tibbi sığortanın maliyyə mənbələri hesabına ilkin səhiyyə xidmətlərinin, təcili və təxirəsalınmaz tibbi yardımın, habelə sığorta olunanlara xidmətlər zərfində nəzərdə tutulmuş şərtlər çərçivəsində tibbi xidmətlərin göstərilməsinə təminat verən dövlətin hüquqi, iqtisadi və təşkilati tədbirlər məcmusudur.

İcbari tibbi sığorta sisteminin məqsədi səhiyyə sahəsində mövcud maliyyələşmə mexanizmlərini yeni iqtisadi əsaslarla təkmilləşdirərək əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini daha da yüksəltmək və əlçatanlığını təmin etməkdir. 1 yanvar 2020-ci ildən icbari tibbi sığortanın ölkə üzrə mərhələli tətbiqinə başlanılıb. 1 aprel 2021-ci il tarixindən icbari tibbi sığorta sistemi bütün ölkə ərazisini əhatə edir.

Xidmətlər Zərfi icbari tibbi sığortanın maliyyə mənbələri hesabına sığortaolunanlara müvafiq növdə, həcmdə və şərtlərlə göstərilən tibbi xidmətlərin toplusudur. İcbari tibbi sığorta çərçivəsində vətəndaşlar, təcili və təxirəsalınmaz tibbi yardım, ilkin tibbi-sanitariya yardımı, ambulator xidmət, stasionar xidmət, funksional-diaqnostik və laborator müayinələr, fizioterapevtik xidmətlər, cərrahi əməliyyatlar, o cümlədən həyati vacib, dəyəri yüksək əməliyyatlardan yararlana bilir. İcbari tibbi sığortanın Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin sayı 3315-dir.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
12 dekabr
2023-cü il

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Qadını nikaha daxil olmağa məcbur edənlər necə cəzalandırılır?

*"Cinayət Məcəlləsinin 176-1.1-ci maddəsində qadını nikaha daxil olmağa məcburetmə cinayəti öz əksini tapmışdır. Belə ki, qadını nikaha daxil olmağa məcburetmə iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.*

VƏKİL AÇIQLADI



Onun sözlərinə görə, eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə – üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır: "Eyni zamanda həmin Məcəlləyə əsasən on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə – üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

Vəkil sözlərinə belə davam edib: "Ailə Məcəlləsinin 10-cu maddəsinə əsasən Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunur. Üzürlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər. Əgər yetkinlik yaşına çatmayan şəxsin valideynləri onu nikaha daxil olmağa məcbur etmişlərsə və bu hal kifayət qədər mötəbər dəlillərlə təsdiqini tapırsa onlar cinayət məsuliyyəti daşıyırlar. Ümumiyyətlə, qanunvericilik nikah yaşını 18 yaş müəyyən etmişdir. Bu yaşdan aşağı şəxsin nikaha daxil olması qəti qadağandır. Bəzi hallarda müvafiq icra hakimiyyəti orqanı nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər".

***Ayşən Vəli***

# Həkimdən çağırış: "Uşaqları 1 və 6 yaşlarında 2 dəfə peyvənd etdirin"

*"Qızılca əsasən körpə və azyaşlı uşaqlar arasında yayılan bir xəstəlikdir. Xüsusi müalicəsi olmasa da, uşağın immun sistemini gücləndirmək, simptomları yüngülləşdirmək, ağırlaşmaları aradan qaldırmaq mümkündür. Qızılcanın ötürülməsinin qarşısını almağın ən effektiv yolu vaksinasiyadır. Peyvənd əsasən uşaqlıq dövründə (12-15 ay və 6 yaşda) vurulur.*



2014-cü ildən vaksin preparatları Azərbaycana Səhiyyə Nazirliyi tərəfindən UNICEF xətti ilə gətirilir. İstehsalçı ölkədən asılı olmayaraq ölkəyə daxil olan bütün vaksinlər Ümumdünya Səhiyyə Təşkilatının təhlükəsizlik və effektivlik standartlarına cavab verir". SİA xəbər verir ki, bunu Səhiyyə Nazirliyi K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun infeksionisti Səbinə Cəfərova deyib.

"Həkim məsləhəti kimi, bir çağırış olaraq valideynlərə demək istərdim ki, övladlarının sağlamlığına son dərəcədə diqqətli olsunlar. Uşaqlarının qızılcadan qorunması, yoluxma hallarının qarşısının alınması məqsədilə mütləq olaraq 1 və 6 yaşlarında 2 dəfə peyvənd etdirsinlər. Peyvəndin 1-ci dozasını vaxtında almayan uşaqlar tez bir zamanda vaksinasiya olunmalı, 6 yaşına çatdıqda isə peyvəndin 2-ci dozasını almalıdırlar. Hər hansı səbəbdən peyvəndin 2-ci dozasını vaxtında almayan 10 yaşa qədər uşaqlar tez bir zamanda peyvəndin 2-ci dozasını vurdurmalıdırlar. Peyvəndin hər iki dozasını vaxtında almayan 10 yaşa qədər uşaqlar minimum 4 həftə intervalla peyvəndin hər iki dozasının alması tövsiyə olunur.

Valideynlərin nəzərinə çatdırım ki, uşaqlarının vaksinasiyası üçün onların yaşayış yeri üzrə uşaqlara ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət etsinlər. Peyvənd qızılcaya yoluxan uşaqlarda xəstəliyin şiddətini və yayılmasını əhəmiyyətli dərəcədə azaldır. Qızılca peyvəndinin ilk dozasının qoruyuculuğu təxminən 95 faizdir", - deyə S.Cəfərova qeyd edib.

# XƏBƏRDARLIQ: İntensiv yağış və qar yağacaq, temperatur 3-6 dərəcə enəcək

Bakıda və Abşeron yarımadasında dekabrın 12-dən 14-ü səhərədək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, yarımadanın bəzi yerlərində yağıntının intensiv olacağı ehtimalı var.

Şimal-şərq küləyi 12-si gündüz arabir 15-18 m/s-dək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 3-5 dərəcə aşağı enərək, gecə saatlarında 3-6 dərəcə isti, gündüz saatlarında 6-9 dərəcə isti olacaq. Azərbaycan rayonlarında dekabrın 11-i axşamdan 14-ü gündüzədək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə (Quba-Qusar, Balakən-Şəki, Dağlıq Şirvan, Qarabağ və Şərqi Zəngəzur, Naxçıvan MR, Mərkəzi-Aran, Lənkəran-Astara) intensiv olacağı ehtimalı var. Şərq küləyi bəzi yerlərdə arabir 15-20 m/s-dək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 3-6 dərəcə aşağı enərək, aran rayonlarında gecə 1-6 dərəcə, gündüz 11 dərəcəyədək isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 0-5 şaxta olacaq.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000